# Xalqımızın dərin ehtiramını qazanmış birinci xanım



***Azərbaycanın ictimai, sosial, mədəni həyatında önəmli rola malik olan Heydər Əliyev Fondu qurum olaraq humanitar layihələrinin miqyasını genişləndirir. Fond səhiyyə, mədəniyyət, təhsil, sosial sahəsində bir sıra layihələri reallaşdırır. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə daim aşılamaq məqsədini həyata keçirən fond nəinki Azərbaycanda, onun hüdudlarından belə kənarda humanist ideyaların gerçəkləşdirir.***

Heydər Əliyev Fondu bir sıra dost dövlətlərdə - Rusiya Federasiyasında, Rumıniyada, Türkiyədə və ABŞda nümayəndəliklər yaratmaqla Azərbaycanın beynəlxalq nüfuzunun daha da yüksəlməsinə nail oldu. Bütün bunlar Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın əməli fəaliyyətində özünü təsdiqləyir. Onun bu genişmiqyaslı layihələri təkcə Azərbaycanda deyil, dünya miqyasında yüksək qiymətləndirilir.

Mehriban xanım Əliyeva dünya miqyasında maraq doğura biləcək, beynəlxalq mahiyyət daşıyan layihələrinə imza atır. Onun təşəbbüsü ilə dünya ölkələrində silsilə humanitar tədbirlər həyata keçirilib. Əbəs yerə deyil ki, sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətinə, qayğıya ehtiyacı olan uşaqlara diqqətinə, təhsilə, həmçinin islam aləmində görülən işlərə böyük dəstəyinə görə İSESKO-nun Xoşməramlı səfiri adını daşıyır. Azərbaycanın Birinci Xanımının genişmiqyaslı proqram və layihələri uğurla icra olunur. Təhsil sistemini təkmilləşdirmək və onun dünya təhsil sisteminə inteqrasiyasını təmin etmək məqsədi ilə "Yeniləşən Azərbaycana yeni məktəb" Proqramı təhsil sahəsində saysız nailiyyətlərə səbəb oldu. Onun "Təhsilə dəstək" layihəsi tək Azərbaycanda deyil, bir sıra xarici ölkələrdə də həyata keçirilir. Fondun layihələri çərçivəsində yüzlərlə məktəb, onlarla uşaq bağçası və ixtisaslaşdırılmış uşaq məktəbləri tikilib, təmir olunub, yüksək standartlarla təchiz edilib. Belə müasir məktəblərin sayı günü-gündən artır. Elmə, təhsilə göstərdiyi diqqətin nəticəsidir ki, fondun təşəbbüsü ilə Pakistanın Müzəffərabad şəhərində qızlar üçün yeni məktəb tikdirib. Hollandiyada, Gürcüstanda, Misirdə, Rusiyada və Rumıniyada məktəblər tikilib və ya təmir edilib. O cümlədən Leql şəhərindəki musiqi məktəbinin zalı, Ulyanovsk şəhərindəki 78 nömrəli orta ümumtəhsil məktəbinin binası əsaslı təmir olunub. Heydər Əliyev Fondunun dəstəyi ilə Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda görmə qabiliyyəti məhdud olan uşaqlar və gənclər üçün mərkəz istifadəyə verilib. Bu görülən işləri sadalamaqla bitmir. Həmin müəssisələr Avropa standartlarına uyğun bir şəkildə təşkil olunub. Gördüyümüz kimi, Mehriban xanım Əliyeva milli-mənəvi dəyərlərin qorunması, mədəniyyətimizin geniş təbliği ilə yanaşı, elm və təhsilin inkişafını təmin edən layihələrini də reallaşdıraraq, bəşəri ideyalara söykəndiyini beynəlxalq aləmə əməlləri ilə bəyan edir. Azərbaycanın beynəlxalq nüfuzunun artmasına yönələn tədbirləri həyata keçirməklə böyük layihələrin müəllifinə çevrilib. Mehriban xanım Əliyeva öz fəaliyyətində bu strateji istiqamətlərdə möhtəşəm layihələri uğurla davam etdirir.



## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT RƏMZLƏRİ

### DÖVLƏT BAYRAĞI



Azərbaycanda üçrəngli dövlət bayrağı ilk dəfə 1918-ci il noyabr ayının 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə qəbul edilmişdir. 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyəti süqut etdikdən və Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycanda bu bayraq qadağan edilmiş və sovet bayrağı ilə əvəz olunmuşdur.

Sonralar Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırılmışdır. 1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Azərbaycan Respublikasının dövlət suverenliyinin rəmzlərindən biri olan üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar vermişdir. Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng - islam sivilizasiyasına mənsubluğunu ifadə edir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.



### DÖVLƏT GERBİ

Azərbaycanın dövlət gerbi haqqında Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1920-ci il yanvarın 30-da müsabiqə elan etmiş və müsabiqədən keçəcək gerb nümunəsinin həmin ilin mayın 28-də qəbul ediləcəyi haqqında qərar çıxarmışdır. Lakin 1920-ci il aprel ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi nəticəsində həmin gerb qəbul edilməmişdir. Sonralar - 1990-cı ildə Azərbaycan SSR Ali Soveti qarşısında Azərbaycanın Dövlət gerbinin hazırlanması üçün yeni müsabiqənin elan olunması haqqında vəsatət qaldırılmışdır. Müsabiqə 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə elan olunmuşdur. 1991-1992-ci illərdə müsabiqəyə Dövlət gerbinin onlarla layihəsi təqdim olunmuşdur. Müzakirələr zamanı 1919-1920-ci illərdə hazırlanmış layihələrdən birinin qəbul edilməsi ilə bağlı təkliflər də səslənmişdir.

Azərbaycan Respublikasının Ali Soveti 1993-cü il yanvarın 19-da qəbul etdiyi Konstitusiya Qanunu ilə 1919-1920-ci illərdə hazırlanmış Dövlət gerbi layihələrindən birini müəyyən dəyişikliklərlə Azərbaycan Respublikasının Dövlət gerbi kimi təsdiq etmişdir. Dövlət gerbi haqqında Əsasnamə və ona əlavə edilmiş təsvir 1993-cü il aprelin 5-də təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Dövlət Gerbi Azərbaycan dövlətinin müstəqilliyinin rəmzidir. Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən Şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikasının Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində isə alov təsviri vardır.

Gerbin rəngli təsvirindən ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl, sünbüllər sarı, qalxanın və ulduzun sağanaqları habelə qalxanın düymələri və palıd qozaları qızılı rəngdədir.

### DÖVLƏT HİMNİ

1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Cümhuriyyətin Milli Himninin hazırlanması haqqında qərar qəbul etdi və bu məqsədlə Xalq Maarif Nazirliyi tərəfindən müsabiqə elan edildi. Lakin 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyətinin süqutu Azərbaycanın Milli Himnini qəbul etməyə imkan vermədi. Azərbaycan Respublikasının ilk Dövlət Himni 1945-ci ildə Azərbaycan SSR Sovet İttifaqının tərkibində olarkən qəbul edilmişdir (sözləri S.Vurğun və S.Rüstəmin, musiqisi Ü.Hacıbəyovun) 1992-ci il mayın 27-də parlament "Azərbaycan Respublikasının Dövlət Himni haqqında" Qanun qəbul etdi. Qanuna əsasən, 1919-cu ildə böyük bəstəkar Üzeyir Hacıbəyov və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş təntənəli "Azərbaycan marşı" Azərbaycanın Dövlət Himni kimi təsdiq edildi.

Musiqisi: **Üzeyir Hacıbəyovun,**
Sözləri: **Əhməd Cavadındır.**

**Azərbaycan! Azərbaycan!**
**Ey qəhrəman övladın şanlı Vətəni!**
**Səndən ötrü can verməyə cümlə hazırız!**
**Səndən ötrü qan tökməyə cümlə qadiriz!**
**Üçrəngli bayrağınla məsud yaşa!**
**Minlərlə can qurban oldu,**
**Sinən hərbə meydan oldu!**
**Hüququndan keçən əsgər!**
**Hərə bir qəhrəman oldu!**
**Sən olasan gülüstan,**
**Sənə hər an can qurban!**
**Sənə min bir məhəbbət**
**Sinəmdə tutmuş məkan!**
**Namusunu hifz etməyə,**
**Bayrağını yüksəltməyə,**
**Cümlə - gənclər müştaqdır!**
**Şanlı Vətən! Şanlı Vətən!**
**Azərbaycan! Azərbaycan!**

## Ziyalılıq kütləvi ola bilməz. Alim, şair, bəstəkar, rəssam, yazıçı artıq bunlar fikri istedada malik olan nadir adamlardır

*Heydər Əlirza oğlu Əliyev*



**Zərifə Əziz qızı Əliyeva**

Azərbaycan SSR-nın əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki



**Heydər Əlirza oğlu Əliyev**

Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Respublikasının üçüncü Prezidenti "Ulu öndər" və "Azərbaycan xalqının ümummilli lideri" titullarının rəsmi daşıyıcısı.

***Mənalı ömür yaşamaq hər insanın taleyinə yazılmır. Elə insanlar var ki, onların ömür yolu gələcək nəsillərin həyatına işıq saçır, xalqa tükənməz bir xəzinə bəxş edir.***

Bu dünyaya insanlara nur paylamaq, xeyirxahlıq etmək üçün gəlmiş Zərifə xanım Əliyeva da belə seçilmiş insanlardan olmuşdur. O, günəş qədər parlaq ürək sahibi, yüksək mənəviyyat, daxili zənginlik simvolu idi. Qəlbini şam kimi əridib ondan xeyirxahlıq, işıq umanların yoluna nur çiləmək üçün yaradılmışdı Zərifə xanım Əliyeva.

Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi idi. O, nə edirdisə böyük sevgi ilə edirdi. Onun sevgisinin gücü öz ailəsinin hüdudlarında daha çox duyulurdu.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri xiyabanda - atasının məzarə yanında dəfn olunmuşdur. Bütün ömrünü insanlara xidmət işinə sərf etmiş bir insanın bu gün aramızda olmamasına inanmaq çox çətindir. Fəqət, görkəmli alimin, xeyirxah insanın, qayğıkeş ananın adının qədirbilən xalqımızın yaddaşında əbədi həkk olunması bu gün hər bir azərbaycanlı üçün təsəlliverici məqamdır.

***Azərbaycan xalqının şanlı oğlu, qüdrətli dövlət xadimi, dahi siyasətçi Heydər Əliyevin 2016-cı il mayın 10-da anadan olmasının 94-cü ildönümü tamam olur.***

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991 - 1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir. 1993-cü ilin may-iyununda ölkədə siyası böhranının son dərəcə kəskinləşməsi ilə əlaqədar o zamankı rəhbərlik Heydər Əliyevi Bakıya dəvət etmişdir. Heydər Əliyev 1993-cü il 15 iyunda Azərbaycan Ali Sovetinin sədri seçilmiş, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra etməyə başlamışdır.

Heydər Əliyev bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş, öz fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Azərbaycan xalqı heç vaxt ondan dəstəyini əsirgəməmişdir. Azərbaycan xalqının ümummilli lideri, müdrik rəhbər və dahi şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.



# Vətən sevgisiylə döyünən ürək




***Azərbaycan dövləti müstəqilliyini əldə etdikdən sonra ölkədə aparılan quruculuq-abadlıq işləri, islahatlar ölkənin ümumi mənzərəsində, sosial həyatında qısa bir zamanda uğurlu nəticələrin əldə olunmasına gətirib çıxardı. Azərbaycanın dünyaya inteqrasiya olunması, dünyanın bir çox aparıcı dövlətləri səviyyəsində inkişafı görülən işlərin məntiqi nəticəsidir.***

Qeyri-hökumət təşkilatı olaraq fəaliyyətə başlayan Heydər Əliyev Fondu da, bu baxımdan ölkənin ictimai-mədəni-sosial həyatında çox önəmli olan layihələri həyata keçirib. Səhiyyə, təhsil, mədəniyyət və bir çox sosial-humanitar sahələrdəki fəaliyyəti Azərbaycanın inkişafına, insanların rifah halının yüksəlməsinə birbaşa olaraq təsirini göstərdi. Heydər Əliyev Fondunun Prezidenti YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın gerçəkləşdirdiyi layihələr, 12 il müddətində öz bəhrəsini vermiş və bu proses davam etməkdədir.

Heydər Əliyev Fondu yarandığı dövrdən indiyədək öz prinsiplərinə sadiq qalaraq, təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirir. Azərbaycan vətəndaşları üçün bərabər təhsil imkanları yaradılıb. Gənc nəslin biliklərə yiyələnməsini və ölkəmizin dünya təhsil sisteminə inteqrasiyasını prioritet məsələlərdən hesab edən Heydər Əliyev Fondu bu istiqamətdə bir sıra proqram və layihələr həyata keçirir. Bunlar "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" layihələridir. Fondun təşəbbüslərinə dövlət tərəfindən yaxından dəstək verilmiş, ümumilikdə son 12 ildə respublikada 2 min 700 yeni məktəb binası tikilmiş və ya təmir olunmuşdur.

Heydər Əliyev Fondu müxtəlif mədəniyyətlər və sivilizasiyaların qarşılıqlı zənginləşməsinə, xalqlararası dialoqun dərinləşməsinə, tolerantlıq ənənələrinin qorunmasına xüsusi diqqət ayırır. "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsini həyata keçirir. Layihə çərçivəsində dini abidə və ziyarətgahlarda təmir-bərpa işləri aparılır, tədbirlər təşkil edilir.

Bu nailiyyətlər, uğurlar, əməli fəaliyyət təkcə Azərbaycan məkanında deyil, dünyanın uzaq nöqtələrindən belə aydın görünür və maraq doğurur. Mehriban Əliyevaya dünyanın müxtəlif ölkələri tərəfindən təqdim olunan mükafatlar elə Onun fəaliyyətinin diqqətdə olmasının göstəricisidir. Baş ofisi Londonda yerləşən "The Business Year" şirkəti də elə Azərbaycana, Heydər Əliyev Fondunun fəaliyyətinə diqqət ayırır. Dünyanın müxtəlif bölgələrini - Latın Amerikası, Asiya və Afrikanı əhatə edən geniş coğrafiyada sosial-iqtisadi prosesləri izləyən və öz nəşrində işıqlandıran nüfuzlu şirkət ayrı-ayrı ölkələrin sosial-iqtisadi durumu və inkişaf meyilləri, biznes və investisiya mühiti, aparıcı qurumları və digər məsələlər haqqında ildə 20-dən çox xüsusi buraxılış hazırlayır və bütün dünyada yayır. Qeyd edək ki, şirkətin xüsusi buraxılışları dünyanın aparıcı biznes layihələrinin reallaşdırılmasına öz töhfəsini verir. Jurnalın əhatə dairəsinə 30 ölkə daxildir və bunların içərisində Azərbaycan xüsusi yer tutur. Son 4 il ərzində jurnal Azərbaycan ilə çox sıx əməkdaşlıq əlaqələri qurmuşdur. Jurnalın baş redaktoru bildirmişdir ki, Azərbaycanın iqtisadi uğurlarını işıqlandırmaq bizim üçün şərəfdir və jurnalın oxucu auditoriyasının Azərbaycana olan marağının artmasını müşahidə edirik. Bu fikirlər əlbəttə ki, Azərbaycanın geniş imkanlarına, onun sürətli inkişafına əsaslanır. Onu da xüsusi olaraq vurğulayaq ki, 2013-cü ildə "The Business Year" şirkəti Azərbaycan Prezidenti İlham Əliyevi dünyada "İlin Prezidenti" elan etmişdir. Bunun əsas səbəbləri dövlət başçısının son illərdə Azərbaycanın dinamik inkişafı, dünyanın geosiyasi məkanında fəal iştirakı və digər amillərdir.

Azərbaycanın ictimai, sosial və mədəni həyatında fəal iştirakına, cəmiyyətin dinamik inkişafına verdiyi mühüm töhfələrə, mədəniyyətimizin dünyada təbliği sahəsində əvəzsiz xidmətlərinə, həmçinin ümumdünya mədəni irsinin qorunub saxlanması işinə hərtərəfli dəstəyini verən Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın geniş fəaliyyət dairəsi də şirkətin diqqətindən kənarda qalmayıb. Şirkət tərəfindən sosial ədalət və humanizm prinsiplərinə sadiq olan Mehriban xanım Əliyeva dünyada "İlin Birinci Xanımı" mükafatına layiq görülüb.

Mehriban Əliyeva Azərbaycandan kənarda da çox mühüm proqram və layihələri reallaşdırdığından Onun fəaliyyətinə belə diqqət ayrılır. Dünyada qloballaşma prosesi getdiyi bir zamanda milli mənəviyyat, tarixin qorunması, keçmişin bir irs olaraq yaşadılması məqsədi ilə gördüyü işlər qiymətini alır. Dövlətimizin sürətli inkişafı, onun potensialının ildən-ilə yüksəldiyi bir zamanda Azərbaycanın zəngin dəyərlərini dünyaya çıxarır, nümayiş və təbliğ etdirir. Məhz həqiqətin güzgüsündə də Mehriban xanım Əliyeva İlin Birinci Xanımı seçilib.

# Azərbaycan qadını bəşəriyyətin humanizm simvoludur



***Mehriban xanım Əliyevanın timsalında dünyaya müstəqil Azərbaycanın humanist qadını obrazı təqdim olundu. Ölkənin ictimai-siyasi, mədəni həyatında aparıcı qüvvəyə malik olan Azərbaycan qadını bir varlıq olaraq cəmiyyətdə nüfuz sahibinə çevrilib. Onun qadın gözəlliyi, qadın iradəsi, saflığı və sədaqəti xalqımızın milli-mənəvi dəyərləri sistemində formalaşıb. Bütün sahələrdə əməyi olan Azərbaycan xanımı dövlətin inkişafında, dövlətçilik ənənələrinin möhkəmlənməsində müstəsna rola malikdir.***

Bu gün müasirimiz olan Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın birinci xanımı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyeva da məhz Azərbaycanın ictimai-siyasi və mədəni həyatında müstəsna rola malikdir. Azərbaycanda baş verən sıçrayışlarda, onun simasının gündən-günə dəyişməsində, dünyanın nüfuzlu dövlətləri sırasında layiqli yer qazanmasında Mehriban xanım Əliyevanın fəaliyyəti genişmiqyaslı layihələri nəticəsini verib. Onun həyata keçirdiyi layihələr yerli əhəmiyyətli sosial problemlərin həllinə, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək məqsədi daşıyır. İnsanların yaradıcı potensialının, bilik və bacarıqlarının aşkara çıxarılmasına, qabiliyyətlərini göstərməsinə, inkişaf etdirməsinə yardım edir. Azərbaycan mədəniyyətinin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlər, uşaq və gənclərin hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi istiqamətində önəmlidir. Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq, uşaq müəssisələrinin infrastrukturlarını, səhiyyə və tibbi təsisatları inkişaf etdirmək istiqamətində böyük mahiyyət daşıyan addımlar Mehriban xanım Əliyevanın humanizm prinsiplərinə söykənir.

Öz varlığı ilə məmləkətinə şərəf gətirən Azərbaycanın birinci xanımının fəaliyyəti Azərbaycan haqqında olan təsəvvürlərin ciddi şəkildə dəyişilməsi ilə nəticələnib. Azərbaycan haqqında olan təsəvvür, insan haqqında olan təsəvvür onun layihələri əsasında tamam fərqli bir şəkildə meydana çıxdı. Bütün dünyaya müstəqil dövlətdə yaşayan qadın obrazının lazımi şəkildə təqdiminə nail oldu. Öz peşəkarlığı, dünya arenasında baş verən hadisələrə yanaşması ilə humanist insan obrazını canlandırdı.

Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinin tərkib hissəsinə daxil olmasında atdığı addımlar çox əhəmiyyətli hadisədir. YUNESKO-nun elə bir tədbiri yoxdur ki, orada Azərbaycanın milli-mənəvi dəyərlərindən, mədəniyyətindən söz açılmasın. O, tarixi həqiqətləri, tarixi faktları, dünyanın nüfuzlu təşkilatlarının iştirakı olan tədbirlərdə qonaqlara çatdıraraq, maraqlı faktlar əsasında çıxışı ilə ölkə həyatında baş verən hadisələrin təbliğinə nail olub. Onun humanizminin nəticəsi olaraq Azərbaycan əhalisinin sağlamlığı, xoşbəxtliyi geniş bir sferanı əhatə edib. Belə ki, ahıllara, qocalara, uşaqlara qayğı ilə yanaşmaq məsuliyyəti Mehriban xanımın fəaliyyətində özünü təsdiqlədi. Mövcud humanizm bu gün ölkəmizdə örnəkdir.

Bütövlükdə, potensialını ortaya qoyan Mehriban xanımın fəaliyyəti Azərbaycan iqtisadiyyatına, mədəniyyətinə, siyasətinə yenilikləri ilə töhfələrini verir. Onun fəaliyyət dairəsi olduqca əhatəli və çoxşaxəlidir. Qeyd edək ki, hələ Azərbaycan Mədəniyyətinin Dostları Fondunun rəhbəri olduğu zamanda nəinki Azərbaycanda, eləcə də dünya miqyasında böyük layihələrin gerçəkləşməsinə nail olub. Milli-mənəvi dəyərlərin təbliğatı istiqamətində gördüyü işlər ölkənin gələcək həyatının uğurlu nailiyyətləri ilə nəticələnib. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin zəngin irsinin öyrənilməsi, onun yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daim aşılamaq məqsədi ilə Mehriban Əliyeva tərəfindən yaradılan Heydər Əliyev Fondunun genişmiqyaslı fəaliyyəti nəinki Azərbaycanda, onun hüdudlarından kənarda belə əks-səda doğurub. Fond görkəmli siyasi xadim Heydər Əliyevin ideyalarını dəstəkləyərək, ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə fəaliyyətini davam etdirir. Bu yol Heydər Əliyevin müəyyən etdiyi, işləyib hazırladığı siyasətin öyrənilməsinə, təbliğinə və bu ideyaların həyata keçirilməsinə doğru yönəlib.

Müasir dövrümüzdə ziyalılığın ali zirvəsində olan ölkənin birinci xanımının Azərbaycan üçün gördüyü işlər bir əsrin tarixi qədər möhtəşəm və alidir. Onun vətənpərvərlik, milli heysiyyat kimi mənəvi dəyərləri məhz dünya arenasında Mehriban xanım Əliyevaya böyük bir məhəbbət yaradıb. Yaşadığımız qloballaşma dövründə, Azərbaycanın dünyaya inteqrasiya etdiyi bir zamanda milli-mənəvi dəyərlərin üzə çıxarılması, Azərbaycanın bir dövlət olaraq məxsusiliyinin dünyəviləşməsi istiqamətində Mehriban Əliyevanın gördüyü işlər tarixin bu gün üçün deyil, zamanın axarında əsrlərin yaddaşında iz buraxacaq hadisələrə bağlıdır.



# Zərifə Əziz qızı Əliyeva



**Azərbaycan Respublikasının əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyeva 28 aprel 1923-cü ildə Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.**

1942-ci ildə orta məktəbi bitirdiktən sonra o, Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuş və 1947-ci ildə həmin institutu bitirmişdir.

Sonra o, Moskva şəhərində Mərkəzi həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmolgiya üzrə ixtisaslaşdırma kursu keçmişdir.

1950-ci ildə Zərifə xanım Əliyeva aspiranturaya daxil olmuş və 1953-cü ildə buranı bitirmişdir.

1957-ci ilə qədər Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, 1960-cı ildən 1967-ci ilə qədər böyük elmi işçi, 1967-ci ildən isə Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasının dosenti, professor, görmə orqanının peşə patologiyası laboratoriyasının müdiri, oftalmologiya kafedrasının müdiri (1982-1985) vəzifələrində çalışmışdır.

İllər boyu apardığı müşahidələrin, klinik tədqiqatların və təcrübələrin nəticələri Zərifə xanımın dünyada ən məşhur oftalmologiya mərkəzlərinin birində H.Helmqolts adına Moskva Göz Xəstəlikləri Elmi Tədqiqat İnstitutunda müdafiə etdiyi "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" adlı doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. 1977-ci ildə Zərifə xanım Əliyevaya tibb elmləri doktoru dərəcəsi verilmişdir.

Zərifə xanım Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların, o cümlədən "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir.

Zərifə xanım Əliyeva yüksək ixtisaslı səhiyyə kadrların hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, "Vestnik oftalmologiyi" (Moskva) jurnalı redaksiya heyətinin üzvü idi.

1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə - görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Z.Ə.Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ. Averbax adına mükafatına layıq görülmüşdür. Geyd olunmalıdır ki, professor Z.Ə.Əliyeva həmin mükafata layiq görülən ilk qadın idi.

Elmi tədqiqatların yüksək səviyyəsi, onların sosial əhəmiyyəti, ictimai fəallığı, pedaqoji istedadı, çoxillik elmi-tədqiqat işlərində böyük xidmətlərini qiymətləndirərək, 1983-cü ildə Zərifə xanım Əliyevanı Azərbaycan SSR EA-nın akademiki seçdilər.

Zərifə xanım Əliyeva göstərdiyi xidmətlərinə görə orden və medallarla təltif olunmuşdu. Azərbaycanın əməkdar elm xadimi kimi yüksək ada layiq görülmüşdür.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri Xiyabanda, atasının qəbri yanında dəfn olunmuşdur.

# Onun xalqı üçün gördüyü işlər danılmazdır və gözümüzün önündədir



***Heydər Əliyevin demokratik dəyəri qiymətləndirmək bacarığı, öz xalqına gələcəyi uğrunda düşüncə və baxışları hər kəsi düşündürməyə səsləyirdi və məhz bunun nəticəsidir ki, İlham Əliyevin apardığı siyasət bu ardıcıllığı özündə təsdiqləyir.***

Dövlətimizin mənafeyi uğrunda aparılan siyasi tədbirlər Heydər Əliyev ideyalarının layiqli davamçısı, gənclərimizin fəxri olan İlham Əliyevin timsalında daha işıqlı gələcək vəd edir. Öz xalqının mənafeyi uğrunda çalışan bir insan İlham Əliyev haqqında danışmaq və söz demək çətin və məsuliyyətli olsa da, onunla bağlı xoş hisslər heç vaxt məni tərk etməmişdir. Xalqın ləyaqətli oğlu İlham Əliyevdən danışarkən ilk növbədə, onun neft proqramını işlənib həyata keçirilməsindəki uğurlu fəaliyyəti ölkəmizdə idmanın hərtərəfli inkşiafı, xüsusilə də xarici siyasət məsələlərində əldə olunan böyük nailiyyət Avropa Şurasında Azərbaycanın ləyaqətlə təmsil olunması nəzərə çarpır. Bu isə Azərbaycanın xarici siyasətində aparıcı yer tutur. İlham Əliyevin hələ seçkiqabağı çıxışları. siyasətlə bağlı fikirləri, yenilik duyğusu hər bir azərbacanlını düşündürməyə bilməz. Bütün bu düşüncələr isə bir amala xidmət edir. Onun haqqında ürək sözlərini fəxr və qürurla söyləmyə sövq edir. Hamıya bəllidir ki, hakimiyyət sükanının səriştəli siyasətçi əlində olması Azərbaycanın inkişafı və çiçəklənməsi deməkdir.

Yalnız görkəmli ictimai xadiim Heydər Əliyev səviyyəsində olmağa qadir olanlar prezidentimizin davamlısı ola bilərlər. Bunun üçün Heydər Əliyevin siyasi məktəbini öyrənmək, onun fəaliyyət fenomeninin incəliklərini dərk edib zəngin təcrübəsindən bəhrələnmək lazımdır. Dünya şöhrətli Heydər Əliyevin oğlu İlham Əliyev isə əsl siyasət məktəbi keçmiş bir şəxsiyyətdir. O, atasından dövləti idarə etmək məsuliyyətini, beynəlxalq əlaqələri düzgün istiqamətləndirmək prinsiplərini siyasi şərtləri və siyasi imici yüksək qiymətləndirməyi çox düzgün mənimsəmişdir. Atanın fəaliyyəti oğula örnək oldu. Ata oğul üçün ideala çevrildi. Atadan oğula bir yol başladı. Bu, haqq yoludur.

Uzun əsrlərdən sonra Azərbaycan öz dövlətçiliyi uğurunda mücadiləyə başladı. Milli azadlıq hərakatı yolunda uğurlu addımlar atıldı. Xalq yaranmış vürsəti əldən vermədi. Şah İsmail Xətainin yaratdığı Azərbaycan dövlətinin 20-ci əsrin əvvəllərində (1918-20-ci illərdə) yenidən bərpasının davamına 21-ci əsrin astanasında yenidən başlandı. Bununla yeni dövrə keçidin bünövrəsi qoyuldu. Amma müstəqilliyinin qazanılması ağrısız-acısız ötüşmədi. Nəhəng dövlətlərin əlində tarix boyu alət olmuş Ermənistan ölkəmiz üçün ən güclü əngələ çevrildi. Təzəcə ayaq tutmaq istəyən müstəqil respublikamıza qarşı elan olunmamış müharibə başladı.

Keçmişimizi xatırlamaqla bu günümüzlə müqayisə etmək istədim. Bu gün xalqımız azad, demokratik şəraitdə yaşayır. Bunun səbəbkarı isə məhz İlham Əliyev cənablarıdır. İlham Əliyev ömrünü xalqa həsr edib. Biz hamımız onu sevir, onunla fəxr edirik, onun adı hamı üçün müqəddəsdir.



# Yüksək idarəçilik mexanizmi ölkəmizin inkişafında xüsusi rol oynayır

***Tarixin gedişinə təsir göstərən böyük siyasi liderlər irəli sürdükləri mütərəqqi ideyalarla xalqı öz ətrafında birləşdirməyə, hər bir addımda ictimai inam qazanmağa çalışmış, məhz bunun da sayəsində böyük uğurlara imza atmışlar. Fəaliyyətində daim ictimai mənafeni əsas götürən, xalqın dəstəyinə arxalanan siyasi lider konkret siyasi mərhələdə xalqın sabit inkişaf yolunu düzgün müəyyənləşdirmək, milli maraqları qorumaq əzmi ilə seçilir. Siyasətdə ictimai inam qazanmaq məramı demokratik dəyərlərin ön plana çıxdığı hazırkı "sürət əsri"ndə də qətiyyən aktuallığını itirmir. Hakimiyyəti millətə layiqli xidmət vasitəsi sayan və bunu əməli fəaliyyəti ilə sübuta yetirən liderlər milyonlarla insanın iradəsi əsasında dövlətə rəhbərlik şansını qazanırlar.***



Dövrun sərt sınaqlarından üzüağ çıxan Azərbaycan xalqı da taleyini hər zaman qəlbən inandığı, etimad göstərdiyi siyasi liderlə bağlamışdır. Müstəqil Azərbaycan yeni minilliyin başlanğıcında ümummilli lider, dünya şöhrətli ictimai-siyasi xadim Heydər Əliyevin ideyalarının layiqli davamçısı - cənab İlham Əliyevin rəhbərliyi altında uğurlu gələcəyə doğru inamla irəliləyir, bu yolda qarşılaşdığı müxtəlif maneələrə, çətinliklərə mətinliklə sinə gərir. Azərbaycanda demokratiyanın təntənəsi kimi tarixiləşən 2008-ci ilin 15 oktyabr seçkiləri də mahiyyət etibarilə xalqın cənab İlham Əliyevə dərin inam və etimadının əyani təsdiqinə çevrilmiş, ölkə vətəndaşları respublikada uğurla həyata keçirilən islahatlar kursunun davam etdirilməsi naminə ciddi siyasi iradə və qətiyyət nümayiş etdirmişlər.

Prezident seçkiləri bir qayda olaraq konkret zaman kəsiyində reallaşdırılan siyasətin ictimai rəy tərəfindən adekvat dəyərləndirilməsi prosesi kimi də xarakterizə edilir. Seçkilər ərəfəsində hakimiyyət xalqın və dövlətin mənafeyi naminə həyata keçirdiyi kompleks tədbirlər barədə hesabat verərək seçicilərin səsini qazanmağa çalışır. Bu mənada cənab İlham Əliyevin son seçkilərdəki möhtəşəm zəfəri ilk növbədə son 14 ildə ölkənin keçdiyi inkişaf yoluna verilən obyektiv ictimai qiymətdir. Dövlət başçısı ötən müddətdə konseptual əsasları ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş islahatları uğurla davam etdirmiş və yeni çalarlarla zənginləşdirmişdir. "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" deyən dövlət başçısının ötən 15 ildə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar onun daim xalqın mənafeyindən çıxış etdiyini, habelə verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini, gerçəkliyə adekvat olduğunu göstərmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev zaman baxımından o qədər də böyük olmayan bir müddətdə cəmiyyətin bütün gözləntilərini gerçəkləşdirməyə çalışmaqla, hər bir vətəndaşın marağına cavab verən, cəmiyyət həyatının müxtəlif sahələrində uğurlu nəticələrə yol açan çevik, qətiyyətli və düzgün qərarlar qəbul etmişdir. Dövlət başçısının idarəçilik keyfiyyətlərindən ən mühümü isə, şübhəsiz, uzun illər boyu zərrə-zərrə formalaşaraq sabitləşmiş milli dövlətçilik ənənələrinə sadiqlikdir. Cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində son illər əldə etdiyimiz uğurlar məhz bu amilə əsaslanır. Siyasi illüziyalardan, populizmdən uzaq olması, problemlərə rasional mövqedən və real situasiyadan yanaşması, praqmatizmi və yüksək idarəçilik keyfiyyətləri cənab İlham Əliyevin yetkin və peşəkar siyasətçi portretini formalaşdırır. Bütün bu keyfiyyətləri dövlət başçısının malik olduğu yüksək qətiyyət, intellekt, enerji, potensial, işgüzarlıq, novatorluq və birləşdiricilik məziyyətləri tamamlayır.

Mübaliğəsiz demək olar ki, mövcud siyasi kursun ictimaiyyət tərəfindən birmənalı dəstəklənməsini təmin edən ən başlıca amil son beş ildə müstəqil Azərbaycanın əldə etdiyi misilsiz sosial-iqtisadi nailiyyətlərdir. Ötən müddətdə ölkənin davamlı və sabit inkişafı baxımından vacib amil olan ictimai-siyasi sabitlik qorunub saxlanılmış, respublikamız iqtisadi inkişaf sürətinə görə dünyanın lider dövlətləri sırasına yüksəlmiş, sosial problemlərin aradan qaldırılması istiqamətində ardıcıl addımlar atılmış, Azərbaycan Avropa geosiyasi arealında həyata keçirilən qlobal layihələrin təminatçısına çevrilmişdir. Bu gün ikinci elə bir dövlət tapmaq çətindir ki, son 15 ildə ümumi daxili məhsulun artım tempinə görə dünyada lider mövqeyini qoruyub saxlasın, qısa müddətdə dövlət büdcəsinin vəsaitlərini 20 dəfədən çox artıra bilsin. Azərbaycan isə bunlarla yanaşı, həm də regionların sosial-iqtisadi inkişafına xidmət edən mühüm dövlət proqramlarını, fərman və sərəncamları uğurla icra etmiş, həyata keçirilən sosial infrastruktur layihələri nəticəsində bölgələrin siması dəyişmiş, sahibkarlığın inkişafı, yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması, yeni iş yerlərinin açılması naminə sistemli addımlar atılmışdır.

# ƏSL SİYASƏT KONKRET, REAL İŞ GÖRMƏKDƏN İBARƏTDİR

***Azərbaycan Prezidenti cənab İlham Əliyevin son 15 illik inamlı fəaliyyəti onun Heydər Əliyev ideyalarının, sadəcə, davamçısı deyil, eyni zamanda, bu ideyaları yeni dövrün nəbzinə, zamanın ruhuna uyğun həyata keçirən, təkmilləşdirən qətiyyətli siyasi lider olduğunu təsdiqləmişdir.***



Liderlik xüsusiyyətinin xalqın mütləq əksəriyyəti tərəfindən qəbul edilmək, geniş siyasi spektrin inamını qazanmaq, beynəlxalq səviyyədə cərəyan edən proseslərə nüfuz etmək, cəlbedici və real ideyalarla, işlək proqramlarla cəmiyyəti ümumi rifah və tərəqqi naminə səfərbərliyə almaq kimi vacib məqamları özündə ehtiva etdiyini nəzərə alsaq, bu termini bütün kateqoriyalar üzrə cənab İlham Əliyevə şamil etmək olar. Siyasətə ideyaların reallaşdırılması vasitəsi kimi yanaşan və "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" deyən dövlət başçısı hakimiyyətə xalqa təmənnasız xidmət vasitəsi kimi yanaşmış, hər bir fərdin maraq və mənafeyini uca tutmuşdur.

Mütərəqqi idarəçilik prinsipləri ilə cəmiyyətdə böyük nüfuz sahibinə çevrilmiş cənab İlham Əliyev dövlət başçısı kimi məsuliyyətli və şərəfli vəzifədə xalqın ona bəslədiyi ümidləri tam doğrultmuşdur. Yüksək siyasi iradəsi, qətiyyətliliyi, məqsədə doğru inamla irəliləməsi, milli maraqlara sadiqliyi, praqmatizmi, təvazökarlığı və sadəliyi cənab İlham Əliyevi dövlət rəhbəri olaraq xalqa sevdirən, şəxsiyyətinə yüksək rəğbət və etimad formalaşdıran xarakterik cizgilər sırasında xüsusi vurğulanmalıdır.

Ümumiyyətlə, son 15 il ərzində sosial-iqtisadi sahələrdə müsbət göstəricilərin əldə edilməsinin, ölkənin tərəqqi və dinamik inkişaf yolu keçməsinin ən mühüm səbəbi yuxarıda sadaladığım keyfiyyətlərə malik Azərbaycan Prezidenti cənab İlham Əliyevin dəqiq sosial-iqtisadi strategiya əsasında qarşıda duran hədəfləri düzgün müəyyənləşdirməsi ilə bağlıdır. Elə buna görə də möhtərəm dövlət başçımızın həyata keçirdiyi məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanın qüdrətli dövlətə çevrilməsi yolunda mühüm amil olan icimai-siyasi sabitlik, vətəndaş sülhü və həmrəyliyi qorunub saxlanılmış, cəmiyyətin ümumi potensialının ümummilli məqsədlər naminə səfərbər olunması inkişaf prosesində yüksək dinamizmi təmin etmişdir. Dəqiq müəyyənləşdirilmiş prioritetlər, elmi əsaslara söykənən fundamental qərarlar, xalqın mənafeyinə uyğun sosial-iqtisadi siyasət, çevik idarəçilik mexanizminin formalaşdırılması, diplomatik münasibətlərdə balanslaşdırma prinsipinin qorunması, vətəndaşlarımızın rifahı naminə mövcud imkanlardan maksimum səmərəli istifadə dövlət başçımızın 15 illik prezidentlik fəaliyyətini səciyyələndirən xarakterik xüsusiyyətlər kimi mühüm əhəmiyyətə malik olmuşdur.

Azərbaycan Prezidenti cənab İlham Əliyev yüksək siyasi qətiyyət nümayiş etdirərək ötən 14 ildə Azərbaycan üçün bir sıra taleyüklü məsələlərin həllinə nail olmuşdur. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və Bakı-Tbilisi-Qars kimi nəhəng transmilli layihələr ölkəmizin siyasi və iqtisadi mövqelərini yüksək dərəcədə möhkəmləndirmişdir. Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına nəqli məqsədilə həyata keçirilən tədbirlər respublikamızın,bütövlükdə Avropa məkanının enerji təhlükəsizliyi sisteminin əsas təminatçılarından birinə çevrilməsini təmin etmişdir. 2006-cı ilin noyabrında Avropa İttifaqı ilə enerji sahəsində anlaşma memorandumu imzalamış respublikamız bu gün bütövlükdə MDB və Avropa məkanında Rusiyadan enerji asılılığı olmayan, müstəqil siyasət yeridən dövlətlərdən biridir. Bu fakt özlüyündə Azərbaycanın dünya birliyi üçün önəmini xeyli artırmış, respublikamızın Avratlantik strukturlara inteqrasiya prosesini sürətləndirmişdir.



# Biz bütün varlığımızla İlham Əliyevə dəstək olmalıyıq



***Bu gün biz böyük fəxrlə qeyd edirik ki, ulu öndər, ümummilli lider Heydər Əliyevin timsalında xalqımızın və dövlətimizin şanlı tarixi yolu uğurla davam edir. Bu yolu Heydər Əliyev ideallarına daim sadiq qalan, vətənini, xalqını dərin məhəbbətlə sevən, bütün varlığı ilə xalqına bağlı olan Prezidentimiz İlham Əliyev cənabları uğurla, qətiyyətlə davam etdirir. İlham Əliyev kimi gözəl bir rəhbər bizə Allah-Təala tərəfindən bəxş olunub. Onun daxili və xarici siyasətdə uğurları öz bəhrələrini verməkdədir. Bu uğurlu siyasətin nəticəsidir ki, artıq bütün dünyada, o cümlədən, Avropada Azərbaycanın haqq səsi eşidilir.***

İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi daim xalq tərəfindən sevilir, bəyənilir və dəstəklənir. Azərbaycan dövləti iqtisadi cəhətdən möhkəmlənərək təkcə Cənubi Qafqazda deyil, bütövlükdə postsovet məkanında öncül yer tutaraq lider dövlətə çevrilmişdir. Biz inanırıq ki, Azərbaycan dövləti onu gözü götürməyən düşmənlərinə öz iqtisadi gücü ilə qalib gələcək. Odur ki, biz bütün varlığımızla, bütün qüvvəmizlə Prezidentimiz İlham Əliyevə möhkəm arxa-dayaq olmalıyıq. Xalqımızın və dövlətimizin inkişafı naminə həyata keçirilən bütün tədbirlərdə yaxından iştirak etməliyik.

İlham Əliyevin xalqın sosial həyat şəraitinin daha da yaxşılaşdırılması və regionların sosial inkişafı ilə əlaqədar verdiyi sərəncamlar qarşıda geniş perspektivlər açır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu vəzifəyə seçildiyi ilk gündən "güclü iqtisadiyyat-güclü dövlət" formuluna əməl edir.

Azad bazar iqtisadiyyatı şəraitində qeyri-neft sektorunun yüksəlişi, iqtisadiyyatın neftdən asılılıq dərəcəsinin azaldılması, yeni iş yerlərinin açılması, sosial xarakterli bir sıra problemlərin həlli, şübhəsiz, sahibkarlığın inkişafından keçir. Dünyada baş verən iqtisadi prosesləri dərindən bilən dövlət başçısı İlham Əliyev respublikanın sosial-iqtisadi tərəqqisində özəl sektorun, sahibkarların rolunu həmişə düzgün dəyərləndirir, hökumət strukturları ilə iş adamlarının sağlam əməkdaşlıq etməsini zəruri sayır.

Qısa müddətdə sahibkarların güzəştli kreditlərlə təmin olunması, onların fəaliyyətinə yersiz müdaxilələrin qarşısının alınması, özəl sektorda inkişafa mane olan süni problemlərin həlli istiqamətində bir sıra mühüm addımlar atılması cənab İlham Əliyevin bu sahəyə göstərdiyi diqqətin məntiqi nəticəsidir. Ölkə Prezidenti dəfələrlə vurğulamışdır ki, son illər uğurlu iqtisadi göstəricilərin əldə edilməsində özəl sektorun, milli sahibkarlar təbəqəsinin rolu kifayət qədər böyükdür. O, ayrı-ayrı çıxışlarında inhisarçılıq, sahibkarlara süni maneələrin yaradılması, hüquq-mühafizə orqanlarının iş adamlarının fəaliyyətinə müdaxiləsi hallarını pisləmiş, bu münasibət konkret qərarlarla müşayiət olunmuşdur. Antiinhisar fəaliyyətinin gücləndirilməsi, inflyasiyanın qarşısının alınması üçün tədbirlərin görülməsi, korrupsiyaya qarşı mübarizə üzrə Milli Stategiyanın təsdiqlənməsi, biznes subyektlərinin qeydiyyatı və lisenziya sisteminin sadələşdirilməsi, yerlərdə regional iqtisad və apellyasiya məhkəmələrinin yaradılması kimi tədbirlər də bunun əyani təcəssümüdür.

Ölkə başçısı cənab İlham Əliyev hələ 2003-cü il Prezident seçkiləri öncəsi çox ciddi təşəbbüslərlə çıxış etmişdi. İrəli sürülən bütün təşəbbüslər, verilən vədlər artıq tamamilə həyata keçirilmişdir. Bu bir daha onu göstərir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iqtisadi inkişaf sahəsində yeni iqtisadi təfəkkürü, yeni iqtisadi fəlsəfəni, yeni iqtisadi siyasəti reallaşdırmışdır. İrimiqyaslı və böyük maliyyə tutumlu "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın həyata keçirilməsi Azərbaycanın iqtisadi imkanlarının gündən-günə artmasının daha bir göstəricisidir. Dövlət Proqramının cənab İlham Əliyev tərəfindən qəbul edilməsi heç də təsadüfi deyildir. 1993-cü ildən başlayaraq Azərbaycanda həm sosial, həm iqtisadi, həm siyasi, həm də hüquqi inkişaf yeni mərhələyə qədəm qoymuşdu. Ulu öndərimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş bu inkişaf onun ən layiqli davamçısı - Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da sürətlənmişdir. Bu da bir daha onu göstərir ki, iqtisadi sahədə proqnozlaşdırma və planlaşdırmanın tətbiq olunması çox mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda indiyədək 50-dən çox dövlət proqramı qəbul olunmuşdur. Hesab edirəm ki, ən iri miqyaslı, siyasi, iqtisadi və sosial əhəmiyyətinə görə vacib sənədlərdən biri "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"dır. Bu proqramın təsiri uzunmüddətlidir, miqyası genişdir, əhəmiyyəti təkcə bu gün deyil, həm də gələcək üçün hesablanıb. Amma onu vurğulamaq vacibdir ki, Dövlət Proqramının reallaşmasında, uğurlu icrasında cənab İlham Əliyevin siyasi iradəsi, qətiyyəti mühüm rol oynayır. Əminik ki, qarşıdakı illərdə qazanılmış uğurlar yeni nailiyyətlərin əsasını təşkil edəcəkdir.

Hazırda Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq 2013-2020-ci illərdə regionların sosial-iqtisadi inkişafı ilə bağlı yeni Dövlət Proqramının həyta keçirilməsi üzərində iş gedir. Əminəm ki, bu proqramla da Azərbaycan özünün sosial-iqtisadi inkişafının keyfiyyətcə yeni bir mərhələsinə qədəm qoyacaq, abadlıq-quruculuq tədbirləri daha geniş vüsət alacaq, ölkəmizin regionda, dünyada nüfuzu daha da möhkəmlənəcəkdir.

# Fenomenlərin ağ yolu



***Heydər Əliyevin demokratik dəyəri qiymətləndirmək bacarığı, öz xalqına gələcəyi uğrunda düşüncə və baxışları hər kəsi düşündürməyə səsləyirdi və məhz bunun nəticəsidir ki, İlham Əliyevin apardığı siyasət bu ardıcıllığı özündə təsdiqləyir.***

Dövlətimizin mənafeyi uğrunda aparılan siyasi tədbirlər Heydər Əliyev ideyalarının layiqli davamçısı, gənclərimizin fəxri olan İlham Əliyevin timsalında daha işıqlı gələcək vəd edir. Öz xalqının mənafeyi uğrunda çalışan bir insan İlham Əliyev haqqında danışmaq və söz demək çətin və məsuliyyətli olsa da, onunla bağlı xoş hisslər heç vaxt məni tərk etməmişdir. Xalqın ləyaqətli oğlu İlham Əliyevdən danışarkən ilk növbədə, onun neft proqramını işlənib həyata keçirilməsindəki uğurlu fəaliyyəti ölkəmizdə idmanın hərtərəfli inkşiafı, xüsusilə də xarici siyasət məsələlərində əldə olunan böyük nailiyyət Avropa Şurasında Azərbaycanın ləyaqətlə təmsil olunması nəzərə çarpır. Bu isə Azərbaycanın xarici siyasətində aparıcı yer tutur. İlham Əliyevin hələ seçkiqabağı çıxışları. siyasətlə bağlı fikirləri, yenilik duyğusu hər bir azərbacanlını düşündürməyə bilməz. Bütün bu düşüncələr isə bir amala xidmət edir. Onun haqqında ürək sözlərini fəxr və qürurla söyləmyə sövq edir. Hamıya bəllidir ki, hakimiyyət sükanının səriştəli siyasətçi əlində olması Azərbaycanın inkişafı və çiçələnməsi deməkdir.

Yalnız görkəmli ictimai xadiim Heydər Əliyev səviyyəsində olmağa qadir olanlar prezidentimizin davamlısı ola bilərlər. Bunun üçün Heydər Əliyevin siyasi məktəbini öyrənmək, onun fəaliyyət fenomeninin incəliklərini dərk edib zəngin təcrübəsindən bəhrələnmək lazımdır. Dünya şöhrətli Heydər Əliyevin oğlu İlham Əliyev isə əsl siyasət məktəbi keçmiş bir şəxsiyyətdir. O, atasından dövləti idarə etmək məsuliyyətini, beynəlxalq əlaqələri düzgün istiqamətləndirmək prinsiplərini siyasi şərtləri və siyasi imici yüksək qiymətələndirməyi çox düzgün mənimsəmişdir. Atanın fəaliyyəti oğula örnək oldu. Ata oğul üçün ideala çevrildi. Atadan oğula bir yol başladı. Bu, haqq yoludur.

Uzun əsrlərdən sonra Azərbaycan öz dövlətçiliyi uğurunda mücadiləyə başladı. Milli azadlıq hərakatı yolunda uğurlu addımlar atıldı. Xalq yaranmış vürsəti əldən vermədi. Şah İsmail Xətainin yaratdığı Azərbaycan dövlətinin 20-ci əsrin əvvəllərində (1918-20-ci illərdə) yenidən bərpasının davamına 21-ci əsrin astanasında yenidən başlandı. Bununla yeni dövrə keçidin bünövrəsi qoyuldu. Amma müstəqilliyinin qazanılması ağrısız-acısız ötüşmədi. Nəhəng dövlətlərin əlində tarix boyu alət olmuş Ermənistan ölkəmiz üçün ən güclü əngələ çevrildi. Təzəcə ayaq tutmaq istəyən müstəqil respublikamıza qarşı elan olunmamış müharibə başladı.

Keçmişimizi xatırlamaqla bu günümüzlə müqayisə etmək istədim. Bu gün xalqımız azad, demokratik şəraitdə yaşayır. Bunun səbəbkarı isə məhz İlham Əliyev cənablarıdır. İlham Əliyev ömrünü xalqa həsr edib. Biz hamımız onu sevir, onunla fəxr edirik, onun adı hamı üçün müqəddəsdir. Bu gün bu gözəl insanın anadan olması günüdür. Bu münasibətlə möhtərəm Prezidentimizi təbrik edir, Ona həyatda uğurlar arzulayırıq. Ad Gününüz Mübarək!

# DAHİ SİYASƏTÇİNİN DAHİ DAVAMÇISI

***Azərbaycan illərdir ki, müstəqillik əldə edib. Nəzərə alsaq ki, bu müstəqilliyin ilk iki ili yalnız səriştəsiz insanların hakimiyyət savaşına "həsr olunub" və eyni zamanda Ermənistanın təcavüzkar siyasəti ilə üz-üzə qalmışıq, bu gün dövlətimizin əldə etdiyi uğurlar bəlkə də eyni şərtlər daxilində başqalarının on illiklərdə qət etdiyi yoldan çoxdur.***



Azərbaycan dövləti 20 illik cavan bir tarixə malik olmasına baxmayaraq, dünyanın inkişaf tempi ilə ayaqlaşa bilib və müasir standartların, müsbət beynəlxalq təcrübələrin ölkəmizə gəlməsinə nail olub. Bu gün Azərbaycanın qarşısında yeni əsrin çağırışları dayanır. Ölkədə vətəndaş cəmiyyəti qurulub və dövlətimiz demokratik prinsiplərə sədaqət nümayiş etdirir. Azərbaycan ən müasir texnologiyalara qucaq açır, müasir tələbləri addımlarında ehtiva edir. Siyasi proseslərin müsbət istiqamətdə inkişafı Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşmasına, xalqla iqtidar arasında birliyin möhkəmlənməsinə şərait yaradır. Azərbaycanın daha da güclü dövlətə çevirməsi üçün Prezident İlham Əliyev bu cür tezis irəli sürüb: "Azərbaycan "qara qızıl"ı insan kapitalına çevirir".

Azərbaycanda aparılan iqtisadi islahatlar artıq səmərəsini verir. ölkəmizdə ümumi daxili məhsul 96 faiz artıb. Uğurla həyata keçirilən sosial islahatlar isə cəmiyyətin inkişafında, xalqın rifah səviyyəsinin artmasında öz müsbət rolunu oynayır. Prezident İlham Əliyev parlamentin yaranmasının 90 illik yubileyində Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafında sosialyönümlü islahatların rolunu müsbət dəyərləndirib. Yaşayış səviyyəsi ildən-ilə artan Azərbaycan xalqının rifah halı yaxşılaşır və bunun göstəricisi olan yoxsulluğun səviyyəsi kəskin şəkildə aşağı düşür: "Son illərdə yoxsulluğun səviyyəsinin 49 faizdən 16 faizə düşməsi onu göstərir ki, bizim qəbul edilmiş bütün qərarlar, siyasi və iqtisadi islahatlar, uğurlu neft siyasətimiz, ilk növbədə, Azərbaycan xalqının rifah halının yaxşılaşmasına yönəldilibdir. Sürətlə inkişaf edən bəzi cəmiyyətlərə xas olan təbəqələşmə prosesi Azərbaycan cəmiyyətində getmir. Əksinə, Azərbaycanda çox güclü orta sinif yaranır, sahibkarlar sinfi yaranır və bilirsiniz ki, bu sahəyə çox böyük diqqət göstərilir. Bu gün ölkə iqtisadiyyatının 80 faizdən yuxarı hissəsi özəl sektorda formalaşır. Baxmayaraq ki, Azərbaycan iqtisadiyyatının əsas hissəsini enerji resursları təşkil edir və enerji resursları dövlət nəzarətindədir, özəl sektor sürətlə inkişaf edir".

Xalqımızın böyük oğlu, Müstəqil Azərbaycan Respublikasının Prezidenti, müdrik və uzaqgörən insan İlham Heydər oğlu Əliyevi doğum günü münasibətiylə təbrik edirik. İlham Əliyev Azərbaycan xalqına bütün həyatı və fəaliyyəti ilə sədaqətini sübut etmişdir. Əsas qəhrəmanı xalq olan bu tarixin hər səhifəsi gənclərimiz üçün örnəkdir.Milli dövlətçiliyimizin inkişafı hüquqi və demokratik cəmiyyət yaradılması, vətəndaş həmrəyiliyinin bərqərar olması istiqamətində göstərilən səylər ilk növbədə dövlətimizin başçısına minnətdar olmalıyıq.İnanırıq ki, Azərbaycan xalqının sınanmış lideri ,öz ölkəsinin çiçəklənməsi,bütün mövcud əngəllərin aradan qaldırılması səylərini bundan sonrada əsirgəməyəcək.

Dövlətimizin möhkəmləndirilməsi, müstəqilliyimizin, suverenliyimizin qorunması ərazi bütövlüyünün təmin olunması, xoşbəxt firavan, Azərbaycsan naminə hər kəs əlindən gələni əsirgəməməli, gələcək nəsillərə estafeti layiqincə çatdırmalıdırlar.bunun üçün isə hər bir azərbaycanlı İlham Əliyevi dəstəkləməlidir.

# Ümummilli liderin siyasi kursu yaşayır və qalib gəlir



***Azərbaycanın müasir tarixi dahi siyasətçi, zəmanəmizin böyük dövlət xadimi, ulu öndərimiz Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev bəşər tarixinin dünyaya bəxş etdiyi ən böyük şəxsiyyətlərindəndir. Ulu öndərimizin polad iradəsi və qətiyyəti, fədakar əməyi sayəsində müasir Azərbaycanın bünövrəsi ucaldılıb.***

Taleyüklü hadisələrlə dolu olan bu dövr ərzində Heydər Əliyev Azərbaycan dövlətini və millətini zamanın ən çətin sınaqlarından çıxararaq ölkəmizin ictimai-siyasi, iqtisadi tərəqqisinə nail oldu. Bu qüdrətli şəxsiyyətin müəyyənləşdirdiyi yeni strateji-siyasi kurs daim Azərbaycana uğur gətirib. Bütün mənalı ömrünü öz xalqının və Vətəninin inkişafı naminə sərf edən ümummilli liderimiz Azərbaycanı öz möhtəşəm fəaliyyəti ilə bütün dünyaya tanıtdırıb, xalqımızın xoşbəxt və firavan gələcəyi üçün etibarlı bünövrə qoyub, onun idarəçilik mexanizmini formalaşdırıb.

Bu gün müstəqil Azərbaycanın yaşamasına, dünyada qüdrətli bir ölkə kimi tanınmasına görə məhz Heydər Əliyevə borcluyuq. Ümummilli lider Azərbaycanın gələcək iqtisadi inkişaf strategiyası barədə danışarkən demişdir: "Müstəqil Azərbaycan Respublikasının qarşısında duran əsas vəzifələrdən biri respublikanın dövlət quruculuğunu təşkil etməkdir. Bizim yolumuz aydındır, bunu dəfələrlə bəyan etmişik. Yolumuz demokratiya yoludur. Müstəqil Azərbaycanda demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir".

Dövlət müstəqilliyinin möhkəmləndirilməsində, milli sərvətlərimizdən ölkəmizin və xalqın mənafeyinə uyğun istifadə olunmasında Heydər Əliyevin uğurlu neft strategiyası xüsusi əhəmiyyət kəsb edir. 1994-cü il sentyabr ayının 20-də dünyanın aparıcı neft şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi" dövlət müstəqilliyinin möhkəmlənməsində müstəsna rol oynamışdır. Heydər Əliyevin dövlət quruculuğundakı müstəsna xidmətlərindən biri də demokratik və hüquqi islahatların ardıcıl olaraq həyata keçirilməsidir.

Ulu öndərimizin rəhbərliyi ilə aparılan uğurlu siyasət sayəsində dövlət əmlakının idarə edilməsi sahəsində də yeni sistem qurulmuşdur. Bu sahədə müvafiq dövlət qurumları yaradılmış, zəruri qanunvericilik bazası formalaşdırılmışdır. Ötən on il, ilk növbədə Heydər Əliyev ideyalarının əbədiyaşarlılığının, müəyyən etdiyi siyasi kursun alternativsizliyinin təsdiqi, xalqın tarixi seçiminin düzgünlüyü, müstəqilliyimizin daha da möhkəmləndirilməsi və inkişafı, Azərbaycanımızın dünyada önəminin artması ilə əlamətdar olub. Cənab İlham Əliyevin rəhbərliyi altında xalqımız çox böyük uğurlar əldə edib, öz inkişafının keyfiyyətcə yeni tərəqqi mərhələsinə qədəm qoyub. Keçən bu dövr həm də onunla əlamətdardır ki, Prezident İlham Əliyevin simasında bəşəri səviyyəli siyasətçinin - Avrasiya məkanında yeni liderin parlaması ilə müşayiət olundu.

Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunu müasir dövrün reallıqlarına uyğun davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə xalqımız tarixi nailiyyətlərə imza atır. "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" - deyən cənab İlham Əliyev, həqiqətən də, son 10 ildə hər bir azərbaycanlının Prezidentinə çevrildi. Bu səbəbdəndir ki, bu ilin oktyabr ayının 9-da keçirilən Prezident seçkilərində xalqımız növbəti dəfə də yekdilliklə ölkəni sürətlə inkişaf etdirən, xalqın xoşbəxt gələcəyinə möhkəm təminat verən Heydər Əliyev siyasi kursunun təntənəsinə səs verdi. Bu gün cənab İlham Əliyevin uğurlu, gərgin fəaliyyəti nəticəsində ölkəmizin müstəqilliyinin daha da möhkəmlənməsi üçün dünya ölkələri və Avropa Birliyi dövlətləri ilə əməkdaşlıq yeni və daha yüksək mərhələyə çatmışdır.



# Dünya azərbaycanlılarının şəriksiz lideri

***Dünya tarixinə iz qoyan şəxsiyyətlər çox olub. Lakin onlardan biri, 50 milyonluq dünya azərbaycanlılarının ulu öndəri, şəxsən mənim üçün çox əziz olan dostum Heydər Əliyev haqqında danışmaqdan çox ehtiyat edirəm. Çünki o, nəinki qəzet məqaləsinə, kitablara belə sığmayan, tükənməyən, bitməyən mövzudur, danışdıqca insan danışmaq istəyir. Heydər Əliyev dünyada yaşayan bütün azərbaycanlıların şəriksiz lideri kimi həmişə tarixdə qalacaqdır.***



Bütün dünya azərbaycanlılarının ümummilli lideri, müstəqil Azərbaycan Respublikasının xilaskarı və banisi Heydər Əliyev - 1994-cü il fevralın 23-də Londonun "Hilton" otelində bizimlə görüşərkən Vətənimiz Azərbaycan haqqında qürurla danışanda, tam səmimi deyirəm, fərəhdən gözlərim yaşardı. Böyük Britaniyaya rəsmi səfəri çərçivəsində ulu öndər həmin gün vaxt tapıb Londonda yaşayanlarla görüş keçirirdi. Həmin görüşdə Heydər Əliyev bizimlə çox səmimi söhbət etdi və əslində, xaricdə yaşayan azərbaycanlılarla aparılacaq işin, dövlət siyasətinin ilk konturlarını nəzərimizə çatdırdı və dəyərli tövsiyələrini verdi.

Ulu öndər Heydər Əliyevin Azərbaycan Prezidenti kimi rəsmi və işgüzar səfərləri çərçivəsində xaricdə yaşayan azərbaycanlılarla görüşməsi, onların fəaliyyətləri ilə tanış olması, soydaşlarımızı Azərbaycanda investisiya layihələrində iştirak etməyə dəvət etməsi bu istiqamətdə göstərilən diqqətin bariz nümunəsidir. Diaspor nümayəndələri ilə görüşmək, onların Azərbaycana gəlməsini təşviq etmək ənənəsinin əsasını qoyan ilk dövlət başçımız ulu öndər Heydər Əliyev olmuşdu.

Tarixdə ilk dəfə olaraq, dünya azərbaycanlılarının Vətənimizin paytaxtı Bakı şəhərində belə bir mötəbər qurultaya toplanması məhz ulu öndər Heydər Əliyevin adı və fəaliyyəti ilə ələqələndirilməlidir. Belə ki, 2001-ci il mayın 23-də xüsusi sərəncam imzalayan ümummilli lider Heydər Əliyev belə bir qurultayın Bakı şəhərində keçirilməsini zəruri hesab etmişdi. Dünya azərbaycanlılarının, xalqımızın həyatında möhtəşəm tarixi hadisə hesab olunan bu qurultayda çıxış edən soydaşlarımız bu mühüm tədbiri ümumxalq bayramı kimi qiymətləndirmişdilər.

Ulu öndərimizin ideyalarını davam etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyev də Azərbaycanın inkişafı , gələcəyi üçün əlindən gələni edir. Azərbaycanın günü-gündən çiçəkləndiyini, dünyanın aparıcı dövlətləri arasında öz yerini tutmasını, xarici ölkələrdə yaşayan soydaşlarımıza dövlətin diqqət və qayğısını hər dəfə seyr etmək mənə böyük məmnunluq, xoşbəxtlik hissi bəxş edir. Bu işdə şəxsiyyətinə həmişə hörmət bəslədiyim ümummilli lider Heydər Əliyevin layiqli davamçısı, Prezidentimiz İlham Əliyevin qətiyyətli mövqeyi təqdirəlayiqdir. Onun çıxışlarında "Mən 50 milyonluq azərbaycanlının Prezidentiyəm" deməsi və özünün hər əməlində bunu isbatlaması məndə soydaşlarımızın gələcək taleyinə olan əminlik hisslərini bir daha artırır.

Müstəqil Azərbaycan dövləti hər bir azərbaycanlının qüruru, istinadgahıdır. İndi dünyanın hər yerinə səpələnmiş azərbaycanlılar hamılıqla bir məsələ ilə fəxr edirlər: Azad Azərbaycanın varlığı ilə! Bu, çox şey deməkdir. Hər bir insan ilk növbədə öz Vətənini azad görməyi həmişə arzulayır. Mən çox xoşbəxtəm ki, ömrüm boyu arzuladığım müstəqil Azərbaycanı görə bildim. Bu, mənim üçün hər şeydən vacib və önəmlidir. Ən böyük arzum, amalım Azərbaycanın öz tarixi torpaqlarında suveren hüquqlarını bərpa etməsidir. Doğrudur, bu, hələlik gerçəyə çevrilməsə də, müstəqil Azərbaycanın varlığı bu yaşımda mənim üçün hələ ki ən böyük təsellidir. Bu gün əminliklə deyə bilərəm ki, əsas düşmənimiz olan Ermənistan Azərbaycanla müqayisə oluna bilməz. Vətənimizə qarşı tutduqları bu mənfur işğalçılıq və terror yolunda onlar heç nəyə nail ola bilməyəcəklər. Ən böyük ağrılı-acılı yerimiz olan Qarabağ problemi tezliklə öz həllini tapacaq, qaçqın və məcburi köçkünlərimiz öz doğma, qədim ata-baba torpaqlarına dönə biləcəklər. Getdikcə güclənən və düşmənə "göz dağına" çevrilən Azərbaycan dövlətinin bu problemi də tezliklə çözəcəyinə məndə dərin inam hissi var.

# Dünya şöhrətli siyasətçi

***Heydər Əliyev böyük siyasət üçün yaranan, təkcə bir ölkə miqyasında yox, dünya əhəmiyyətli məsələlərin həllində qətiyyətli sözünü deyə bilən nadir siyasətçi idi. Onun bu sahədəki fitri istedadı və fövqəladə qabiliyyəti, hadisələrin və tarixin gedişatını öncə görmək məharəti siyasət aləminə qədəm qoyduğu ilk günlərdən özünü büruzə vermişdi.***



Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə uzaqgörən daxili və xarici siyasəti ilə ölkənin nüfuzunu artırmış, hərtərəfli inkişafına nail olmuş, müstəqilliyini əbədi və dönməz etmişdir. Kiçik bir ölkə Heydər Əliyevin uğurlu siyasəti sayəsində dünyada tanınan nüfuzlu bir dövlətə çevrilmişdi. 1993-cü ildə müstəqil Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev siyasət aləmində çox güclü, səriştəli və təcrübəli müdrik dövlət xadimi kimi qısa bir müddət ərzində xarici siyasət sahəsində böyük dönüş yaratdı. Dünyanın aparıcı dövlətləri, inkişaf etmiş ölkələri, beynəlxalq təşkilatlar Azərbaycana ciddi diqqət yetirməyə başladılar. O, Qərbə inteqrasiya yolunu tutdu. Ən çətin anlarda belə Heydər Əliyev yenilməz siyasi iradə nümayiş etdirdi, milli dövlətçiliyin, milli mənafelərin ifadəçisi kimi antiazərbaycan, antimilli qüvvələrin qarşısında sipərə çevrildi, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilişi məhz bu böyük insanın qətiyyətli mövqeyinin, uzaqgörənliyinin nəticəsi kimi reallığa çevrildi.

Heydər Əliyev idarəetmənin ustadı, siyasətin kamil bilicisi kimi bütün dünyada məşhur idi. Bu dahi insanın təliminə görə siyasət və uzaqgörənlik qarşılıqlı vəhdətdədir. Ulu öndər deyirdi ki, reallığı düzgün qiymətləndirən, keçmiş təcrübədən yaradıcılıqla istifadə edən, sosial-siyasi və iqtisadi problemlərin bütün spektrini, mürəkkəbliyini nəzərə alan, qəbul olunan qərarların mümkün nəticəsini irəlicədən görməyə imkan verən siyasi xətt hökmən uğur qazanmalıdır. Belə siyasət cəmiyyətin sabitliyinə, irəliyə doğru hərəkətinə və tərəqqisinə xidmət edir. Onun siyasəti milli maraqlar üzərində qurulmuşdu. Xalqımızın və dövlətimizin elə bir problemi olmamışdır ki, həmin problemləri kimsə Heydər Əliyev yüksəkliyində dərk etmiş olsun. O, hər hansı problemə həsr olunmuş yığıncaqda məsələyə dərindən bələdliyi, verdiyi suallar, qaldırdığı problem məsələlərlə həmin sahənin mütəxəssislərini belə heyrətləndirirdi. Çünki o, istər sənaye, istər kənd təsərrüfatı, istərsə də elm, maarif, mədəniyyət ilə bağlı məsələlərin müzakirəsində bütün iştirakçıları həmin sahənin əvəzedilməz bilicisi kimi idarə edirdi. Onun kimi təsərrüfatı təsərrüfatçıdan, tariximizi tarixçidən, incəsənətimizi sənətşünasdan, iqtisadiyyatı iqtisadçıdan yaxşı bilən, onun problemlərini həll etməyə istiqamətləndirən ikinci adam tapmaq mümkün deyil.

Heydər Əliyev fenomeni, onun şəxsiyyətinin ucalığı, fövqəladə idarəçilik qabiliyyəti, yüksək intellekti nəticəsində dünyanın görkəmli siyasətçiləri və dövlət xadimləri arasında onun adı həmişə birincilər sırasında çəkilib. Onun haqqında deyilən söz, verilən qiymət bu gün də, sabah da lazımdır, bunlar tariximizin yaddaşına köçürülməlidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın sabaha olan inamını qat-qat artırmış, Heydər Əliyev yolunun layiqincə davam etdirildiyinə, memarı olduğu müstəqil Azərbaycanın etibarlı əllərdə olduğuna möhkəm əminlik yaratmışdır. Ulu öndər Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini aydın görən xalqımız bu siyasəti yüksək dəyərləndirir və onun ətrafında daha sıx birləşirlər. Cənab İlham Əliyev ulu öndərin siyasi kursunu layiqincə davam etdirməklə, xalqımızın və dövlətçiliyimizin bu kursun mahiyyətindən doğan milli maraqlarını beynəlxalq miqyasda təmin edir. Heydər Əliyev siyasətinin uğurla həyata keçirilməsi müstəqilliyimizi möhkəmləndirir, dövlətçiliyimizi qüdrətləndirir və nəticədə beynəlxalq aləmdə Azərbaycan Respublikasının rolunu və nüfuzunu artırır.

# Xalqın milli sərvətinə çevrilmiş insan



***Hər bir xalq gələcək inkişaf prioritetlərini düzgün müəyyənləşdirmək üçün, ilk növbədə, konkret zaman və məkan daxilində keçdiyi yolun uğurlu nəticələrindən bəhrələnməyə çalışır. Bu emprik dəyərləndirmə mənsub olduğu xalqın təminatlı gələcəyi baxımından hətta zamandan istifadə edərək uzaq hədəflərə hesablanmış praqmatik, əməli siyasət yeridən, milli inkişaf üçün dayanıqlı əsasların müəllifinə çevrilən fenomenal liderlərin misilsiz xidmətləri ön plana çəkir.***

Tarixə möhürünü vuran belə liderlər mütərəqqi inkişaf modelinin siyasi və iqtisadi əsaslarını formalaşdırmaq kimi ağır missiyanı çiyinlərinə götürərək mənsub olduqları xalqların gələcək inkişaf strategiyasını müəyyənləşdirirlər.

XXI əsrin başlanğıcında Azərbaycanın müstəqil dövlət kimi bölgədə və dünyada layiqli yerini tutması, regional liderliyini təmin etməsi, iqtisadi sahədə keçid dövrünü uğurla başa vurması da məhz ümummilli lider, dünya şöhrətli ictimai-siyasi xadim Heydər Əliyevin xalqın iradəsinə əsaslanmaqla əsasını qoyduğu uzaqgörən siyasətin nəticəsidir. XX əsr Azərbaycan tarixinin fenomen şəxsiyyəti olan ümummilli lider xalqı tarixən can atdığı müstəqillik idealına qovuşdurmuş, mütərəqqi tarixi ənənə əsasında yeni dövlətçilik konsepsiyasını irəli sürmüşdür. O, qlobal dünya nizamı fonunda tamamilə fərqli - xalqın demokratik idealları və milli dövlətçilik təfəkkürü ilə uzlaşan, hər bir mərhələ üçün konkret fəaliyyət prioritetləri, taktiki və strateji məqsədləri olan milli inkişaf strategiyasını irəli sürərək uğurla həyata keçirmişdir.

Dövlət idarəçiliyi sahəsində zəngin təcrübəyə malik ümummilli lider xarici siyasətdə yol verilmiş səhvlərin aradan qaldırılması istiqamətində qətiyyətli addımlar ataraq birinci növbədə qonşu dövlətlərlə münasibətləri sahmana salmağa çalışmış, balanslaşdırılmış xarici siyasət yeritməklə respublikamızın geosiyasi rəqabət meydanına çevrilməsinə yol verməmişdir. Azərbaycana ikili standartlardan yanaşmalara qarşı qətiyyətli mübarizə aparan Heydər Əliyev aparıcı dünya dövlətlərini respublikamızın tarazlı və müstəqil siyasət yürüdəcəyinə inandıra bilmişdir.

Ümummilli lider Heydər Əliyevin milli dövlətçilik qarşısında misilsiz xidmətlərindən biri də müstəqil Azərbaycanın yeni neft strategiyasının hazırlanması və 1994-cü ildən uğurla həyata keçirilməsi olmuşdur. Miqyasına görə XX əsrin analoqu olmayan qlobal layihələrindən biri kimi alternativ enerji mənbələri axtarışında olan müasir dünyanın yeni geoiqtisadi xəritəsinin müəyyənləşməsinə əsaslı təsir göstərən "Əsrin müqaviləsi" Azərbaycanın siyasi və iqtisadi cəhətdən möhkəmlənməsinə, beynəlxalq iqtisadi münasibətlər sisteminə sürətli inteqrasiyasına da təkan vermişdir. Son 19 ildə bir çox inkişaf etmiş dövlətlərin əsrlərlə keçdiyi inkişaf yolunu inamla qət edən respublikamızın inanılmaz iqtisadi və siyasi nailiyyətlərinin bazisinə çevrilən bu kontrakt, eyni zamanda Azərbaycanın yüksək siyasi iradəsini, milli maraqlarını sonadək müdafiə etmək, təbii sərvətlərinə sahib çıxmaq əzminin təntənəsi kimi tarixiləşmişdir.

Milli ənənə və dəyərlərə sadiqlik əsla Heydər Əliyevin daxili demokratizminin inkarına yönəlməmiş, bu dahi şəxsiyyət düşüncələrində böyük ustalıqla milli və liberal dəyərlərin uğurlu sintezini yarada bilmişdir. Ulu öndər öz davranışı ilə xalqımıza kənar mədəniyyətlərlə təmas zamanı yabançı həyat tərzlərindən nələri əxz etməyi, nələri götürüb, nələri kənara qoymağı böyük uzaqgörənliklə göstərmişdir.

Azərbaycanın qapıları ən ali, bəşəri və universal dəyərlərin üzünə məhz onun əlləri ilə açılsa da, bu qapıdan həyatımıza daxil olan yeniliklər minilliklər boyu tariximizlə yol gedən, bizi dünya xalqları içərisində tanıdan milli dəyərləri üstələyə bilməmişdir. Xalqımıza xas mənəvi keyfiyyətlər yad mədəniyyət stereotiplərinin milli ənənələr üzərində hakim mövqeyə sahib olmasına heç zaman imkan verməmişdir. Ulu öndər Heydər Əliyev bu mənada, həm də xalqın inanclarını, milli dəyərlərini bütün siyasi proseslərin fövqündə saxlayaraq qorumağı bacarmış liderdir.

# Ürəklərdə əbədi yaşayan dahi şəxsiyyət



***Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan xalqının tarix boyu yetişdirdiyi nadir və bənzərsiz şəxsiyyətlərdən olaraq milyonlarla insanın qəlbində əbədi yaşayır. Həyatının mənasını xalqa və dövlətə xidmətdə görən ulu öndərimiz bu müqəddəs amal uğrunda ən çətin maneələrə, problemlərə mərdliklə sinə gərən millət fədaisi kimi daim böyük ehtiramla, rəğbətlə xatırlanır.***

Müstəqil Azərbaycanın dahi şəxsiyyətləri arasında böyük tarixi missiyanı yerinə yetirmək qüdrətinə malik olan ümummilli liderimizin müstəsna yeri var. Xalqı və Vətəni qarşısında misilsiz xidmətlərinə və müstəsna tarixi roluna görə ulu öndəri dünya miqyaslı siyasi nəhənglərlə müqayisə edirlər. Çünki o, Azərbaycan xalqının həqiqi lideri və xilaskarı kimi şərəfli missiyanı böyük əzmlə yerinə yetirmişdir. Bütün ömrünü Azərbaycanın tərəqqisinə sərf edən bu müdrik insan demişdir: "Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır".

XX əsrin sonu Azərbaycanda müstəqil dövlətçilik ənənələrinin formalaşması mərhələsidir. Bu mərhələnin şəriksiz lideri unudulmaz şəxsiyyət Heydər Əliyevdir. Ümummilli lider şəxsiyyət kimi zamanın yaddaşında bir də ona görə əbədilik qazanıb ki, tükənməz istedadını, zəngin təcrübəsini azad və müstəqil dövlət qurmağa sərf edib və hər şeydən əvvəl, xalqın xilaskarı olub.

Milyonlarla insanın ümid çırağına çevrilərək qəlblərdə əbədi yurd salmaq heç də bütün rəhbərlərə, liderlərə nəsib olmur. Hələ sağlığında canlı əfsanəyə çevrilmiş Heydər Əliyev ürəklərdə özünə əbədi abidə ucaldıb. Onun parlaq ideyaları hələ uzun illər boyu gələcəyə gedən yollarımızı işıqlandıracaqdır. Bütün mənalı ömrünü xalqa həsr edən bu nurlu şəxsiyyətə bəslənilən sevgi sonsuzdur. Qədirbilən xalqımız onun xidmətlərini heç vaxt unutmayacaq, parlaq ideyalarını öz yolunda mayaka çevirəcəkdir.

Heydər Əliyev dünyanın nadir insanlarındandır. O, hamının qəlbinə yol tapmağı bacarır, yaddaşlarda dərin iz qoyurdu. Təkrarsız, heyrətamiz yaddaşa malik Heydər Əliyev əsl rəhbərə xas olan ensiklopedik biliyə malik idi. Geniş və zəngin fəaliyyəti onu milli maraqlar çərçivəsinə sığmayan, bəşəri dəyərlərin əxz olunmasında fəal iştirak edən böyük bir siyasətçiyə, dahi bir şəxsiyyətə çevirmişdi. Yalnız Azərbaycanda deyil, bütün dünyada bu görkəmli dövlət xadiminə, əsrimizin siyasi həyatında mühüm yer tutmuş, ən yüksək vəzifələrin məsuliyyətini daşımış insana dərin hörmət və ehtiram bəslənilib.

Müstəqil Azərbaycan dövləti Heydər Əliyevin şah əsəridir. Heydər Əliyev Azərbaycan xalqına son müraciətində ölkədə rəhbərlik etdiyi illərdə bir azərbaycanlı, vətəndaş və rəhbər kimi yeganə amalının varlığı qədər sevdiyi Azərbaycan xalqına, dövlətinə, ölkənin iqtisadi-siyasi, mənəvi inkişafına xidmət etməkdən ibarət olduğunu söylədi. O bu yolda bütün gücünü, iradəsini yalnız müdrik və qədirbilən xalqından almışdı. Ən çətin vəziyyətlərdə bu inam və xalqına arxalanmaq Heydər Əliyevə dözüm, iradə verib, bütün uğurlarını təmin edib. Elə "Xalq-Heydər, Heydər-Xalq" birliyi də belə yaranıb.

Ümummilli liderimizin bizə ərmağan qoyub getdiyi zəngin irsi bu gün də, sabah da öyrənilməli, onun əsas mahiyyəti dərk edilməlidir. Bu zəngin irs müstəqil Azərbaycan dövlətinin sütunudur. Məhz bu qüdrətli sütunlar üzərində ucalan müasir Azərbaycan güclü ola bilib. İctimai həyatımızın elə bir sahəsini tapmaq mümkün deyil ki, orada Heydər Əliyevin hərarəti duyulmasın.

Xalqımız xoşbəxtdir ki, ümummilli liderimizin siyasi kursu bu gün onun layiqli siyasi varisi, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İndi Azərbaycan iqtisadi inkişaf tempinə görə öndədir. Dünyada əhəmiyyətli regional layihələrin təşəbbüskarı və iştirakçısıdır. Əminik ki, ulu öndərimizin bütün arzuları çin olacaq və Azərbaycan dünyanın ən qüdrətli dövlətləri arasında özünə layiq yüksəkliyə ucalacaqdır.

# Əbədiyaşar lider

***Tarixi şəxsiyyətlər əsrlərin və nəsillərin yaddaşında əbədi yaşayırlar. Zaman ötdükcə onların xalqı və vətəni üçün etdiklərinin, ölkəsinin inkişafındakı xidmətlərinin əhəmiyyəti daha çox nəzərə çarpır. Azərbaycanın 1970-ci illərdən başlayan inkişafı, uğurları və yüksəlişi ümummilli liderimiz, müdrik zəka sahibi Heydər Əliyevin adı ilə bağlıdır.***



Böyük rəhbərin hakimiyyətdə olduğu dövr Azərbaycan elminin, təhsilinin, səhiyyə və mədəniyyətinin, iqtisadiyyatının sürətli tərəqqisi ilə yadda qalmışdır. Bu illər milli-mənəvi dəyərlərimizin qorunması, vətəndaşların sosial həyat tərzinin yaxşılaşdırılması, dünya azərbaycanlılarının monolit bir qüvvə kimi təşkilatlanması, gənclərimizin dövlətçiliyimizin tərəqqisi prosesinə cəlb edilməsi Heydər Əliyev strategiyasının uğuru kimi qeyd olunmalıdır.

Ulu öndərimizin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi dövr quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olub. Heydər Əliyevin Azərbaycan iqtisadiyyatının inkişafındakı xidmətləri özünü hələ sovet dövründə göstərib.

Azərbaycan əsrin sonunda Heydər Əliyevin sayəsində ən iri-miqyaslı iqtisadi layihələrin mərkəzinə çevrilib. Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi hələ 70-80-ci illərdə təməli qoyulmuş potensiala söykənir. Məhz o illərdə ölkəmizin gələcəyi üçün çox mühüm addımlar atılıb. İnfrastruktur yeniləşib, neft sənayesi yenidən qurulub, nəhəng kimya və neft-kimya müəssisələri işə düşüb. Elmi-mədəni tərəqqiyə nail olunub, ölkəmizin iqtisadi, sosial, elmi-texniki potensialı möhkəmləndirilib. Bu gün neft potensialının reallaşmasında, "Əsrin müqaviləsi"nin uğurla həyata keçirilməsində mühüm yeri olan Dərin Özüllər Zavodu kimi dünya miqyaslı müəssisələr inşa edilib. Bununla da böyük öndərimiz hələ siyasi rəhbərliyinin birinci mərhələsində yeni inkişaf strategiyasını müəyyənləşdirib və az vaxtda onu uğurla həyata keçirib.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 34 il ərzində xalq üçün, vətən üçün etdiklərini bəzən adi insan təfəkkürünün əhatə dairəsinə sığışdırmaq olmur. Böyük öndərimiz tariximizə xilaskar kimi daxil olub və respublikamıza rəhbərlik etdiyi hər iki dövrdə bu missiyanı çox böyük uğurla yerinə yetirib. Müasir Azərbaycan cəmiyyətinin formalaşması, müstəqil Azərbaycan dövlətinin qurulması birbaşa Heydər Əliyevin adı ilə bağlıdır. Təsadüfi deyil ki, ümummilli liderimiz azərbaycanlı olması ilə fəxr etdiyi kimi, hər bir azərbaycanlı da bu gün Heydər Əliyevin ən böyük əsəri olan müstəqil, inkişaf etmiş Azərbaycanın vətəndaşları olmaqdan qürur duyur, ulu öndərə saygı və məhəbbətini onun ideyaları ətrafında daha da sıx birləşməklə nümayiş etdirir.

Heydər Əliyev həyatı boyu həmişə xalqa arxalanmışdı: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".

Ümummilli liderimizin xalqın birliyi yolunda göstərdiyi misilsiz fəaliyyət hər bir soydaşımız üçün örnək olmalıdır. Biz Azərbaycanı sevməyi Heydər Əliyevdən öyrənməliyik. "Azərbaycan mənim ürəyimdir, nəfəsimdir" - deyən böyük öndərimiz millətimizin və dövlətimizin əbədiyaşarlığı üçün əvəzsiz bir siyasi xətt, ideoloji baza miras qoydu. Heydər Əliyevin həyat və fəaliyyəti böyük bir məktəbdir və daim öyrənilməlidir.

Vətənə və xalqına xidmət nümunəsi olan bu böyük şəxsiyyət həmişə xalqa arxalanır və deyirdi: "Xalq mənim dayağım, gücüm və inamımdır". Xalq yolunda canını fəda etmiş, bütün həyatı boyu Vətənini və millətini düşünmüş, onun əsgəri olmuş ümummilli liderimiz əbədiyaşarlıq qazanmışdır.

Heydər Əliyev və onun əməlləri daim yaşayacaq, Azərbaycan xalqı, bütün türk dünyası onu heç vaxt unutmayacaq. Bütün ömrünü xalqımızın tərəqqisinə və firavanlığına həsr etmiş ulu öndərin həyat və fəaliyyəti bizim üçün örnəkdir, güc mənbəyidir. Bu günkü Azərbaycanın sürətli inkişafının təməli məhz Heydər Əliyev tərəfindən yaradılıb. Bu siyasi kursa Azərbaycanda alternativ yoxdur. Xalqımız xoşbəxtdir ki, ümummilli liderimizin siyasi kursu bu gün onun layiqli siyasi varisi, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. İnanırıq ki, dövlətimiz ulu öndərimiz Heydər Əliyev dühasından bəhrələnən, onun siyasi kursunun ən layiqli davamçısı cənab İlham Əliyevin dövlətçilik bacarığı və rəhbərlik qabiliyyəti sayəsində daha da inkişaf edəcək, müstəqilliyini və suverenliyini möhkəmləndirəcəkdir.

# Tarix yaradan şəxsiyyət

***Böyük şəxsiyyətlər yaşayıb yaratdıqları, fəaliyyət göstərdikləri zamanlarda siyasi, iqtisadi və digər prosesləri öz xalqlarının rifahı naminə irəliyə aparmaqla adlarını əbədi olaraq tarixə yazmışlar. Hər bir xalq öz tarixi şəxsiyyətləri ilə fəxr edir, onların yaratdığı irsə böyük ehtiramla yanaşır. Azərbaycan xalqı da hər zaman tarixi şəxsiyyətləri ilə fəxr etmişdir.***




Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş, bununla bağlı tarixi proseslərə təsir göstərmiş Heydər Əliyev hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız dahi şəxsiyyətdir. Ulu öndər Heydər Əliyev tarixi prosesə təsir göstərməyə qadir şəxsiyyət kimi Azərbaycan xalqı və dövlətçiliyi üçün çox böyük və əvəzedilməz işlər görmüşdür. Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarixi yaradan şəxsiyyətdir.

Xalqın çağırışı ilə Heydər Əliyev 1993-cü ildə, ölkəmizdə siyasi böhran yaşandığı, vətəndaş mübarihəsi təhlükəsi yarandığı, Ermənistanın təcavüzünün gücləndiyi bir vaxtda siyasi hakimiyyətə qayıtdı. Heydər Əliyevin Azərbaycanın rəhbərliyinə gəlişindən, yəni 1993-cü ildən sonra ölkəmizdə gedən proseslər geniş bir təhlil, təhqiqat tələb edən bir məsələdir. Aparılan araşdırmalar və təhlillər Heydər Əliyevin nəhəng siyasətinin ayrı-ayrı elementlərini bir daha göz önünə gətirməyi zəruri edir.

1993-cü ilin iyun hadisələri zamanı siyasi hakimiyyətə qayıdan Heydər Əliyev ilk növbədə vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı. Azərbaycanda ictimai-siyasi sabitliyin yaradılması üçün ciddi və təxirəsalınmaz addımlar atıldı. Hərb cəbhəsində atəşkəsə nail olundu. Bu, Azərbaycan üçün olduqca vacib idi. Çünki hərbi əməliyyatların davam etməsi Azərbaycan iqtisadiyyatının onsuz da ağır olan vəziyyətini daha da ağırlaşdıra bilərdi, Azərbaycan həmin müharibəni yalnız Ermənistanla aparmırdı. Hamıya bəlli idi ki, Ermənistana silah pulsuz verilirdi. Ermənistana müxtəlif vasitələrlə ayrı-ayrı ölkələrdən də yardımlar göstərilirdi, Ermənistan tərəfi Azərbaycan Ordusunun hücumları qarşısında tab gətirməyərək atəşkəsə razılıq vermək məcburiyyətində qaldı. Atəşkəsin əldə edilməsi ilə yaranmış fasilədən ümummilli lider Heydər Əliyev ölkədə dövlət quruculuğu işinin aparılması və ictimai-siyasi sabitliyin bərqərar olması, iqtisadi və maliyyə sabitliyinin yaradılması üçün çox ciddi siyasətin həyata keçirilməsinə başladı. İctimai-siyasi sabitliyin yaradılması üçün Heydər Əliyevin həyata keçirdiyi siyasətin ana xəttini qanunçuluq və möhkəm dövlət intizamının yaradılması təşkil edirdi. Hamıya bəllidir ki, o dövrdə ayrı-ayrı qrupların nəzarətində qanunsuz fəaliyyət göstərən silahlı dəstələr var idi. Bu silahlı dəstələrin, hökumətə, hakimiyyətə tabe olmayan qanunsuz hərbi birləşmələrin mövcudluğu dövlətçilik və müstəqillik, o cümlədən vətəndaşların təhlükəsizliyi üçün qorxu törədirdi. Heydər Əliyevin atdığı ilk əhəmiyyətli addımlardan biri belə silahlı dəstələrin ləğv edilməsi, onlarda olan silahların yığılması oldu.

Ulu öndər Heydər Əliyevin ən böyük xidmətlərindən biri də Azərbaycanın öz təbii sərvətlərinə sahib çıxması, dünyanın əsas neft-qaz ixracatçısına çevrilməsidir. Heydər Əliyevin bu istiqamətdə həyata keçirdiyi nəhəng siyasi layihələrdən biri neft strategiyasıdır. Neft strategiyası bu gün də Azərbaycan üçün həm siyasi, həm də iqtisadi dividendlər gətirməkdədir. Ulu öndərin uzaqgörənliyi və qətiyyəti sayəsində 1994-cü il sentyabrın 20-də Bakıda müxtəlif ölkələrin neft şirkətləri ilə imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın yeni neft strategiyasının əsasını qoydu. Bu neft strategiyası dünyanın ən qabaqcıl neft şirkətlərini Azərbaycana investisiya yatırmağa cəlb etdi. Bu investisiyalar iqtisadi sabitliyin bərqərar olması üçün böyük rol oynadı. Azərbaycanın beynəlxalq nüfuzu artdı, bölgədə rolu genişləndi. O cümlədən iqtisadi islahatlar aparılması üçün böyük baza yaradıldı, sosial islahatlar üçün iqtisadi potensial əldə edildi.

Beləliklə, bütün bu əldə olunan uğurlar Prezident İlham Əliyevi Azərbaycanda alternativsiz liderə, Cənubi Qafqaz regionunda isə Heydər Əliyevdən sonra gələn ikinci böyük siyasi xadimə çevirib. Qeyd olunanlara əsaslanaraq, əminliklə deyə bilərik ki, ümummilli liderimiz Heydər Əliyev bu gün də bizimlə yaşayır, onun ideyaları uğurla davam etdirilir.



# MƏMMƏDLİ MƏDİNƏ



Bilikli insan hərtərəfli olduğu üçün hər hansı bir çətin vəziyyətdən çox asanlıqla çıxa bilir. Belə insanlar ziyalılığın göstəricisi kimi güclü ünsiyyət bacarığına da yiyələnmiş olur. Belə ki, dili, ünsiyyəti güclü olan insan malik olduğu bilik və bacarığını daha rahat, başa düşüləcək tərzdə ifadə etmək qabiliyyətindədir. Budur ziyalılıq.

Məmmədli Mədinə Əjdər qızı 13 iyun 2008-ci ildə Bakı şəhərində anadan olub.-Dünyaya gəlişi ilə valideyblərinə sevinc hissi bəxş edən Mədinə balamız , valideynlərinin göz nuruna çevrilmişdir.2014-cü ildə Qubadlı rayon Əliyar Əliyev adına Qəzyan kənd tam orta məktəbin 1-ci sinfinə qədəm qoymuşdur.Hal-hazırda həmin məktəbin 5-ci sinif şagirdidir.Çox çalışqan və məsuliyyyətli şagird olan Mədinə, məktəbə gəldiyi ilk gündən öz müəllimlərinin sevimlisinə çevrilməyi və onların hörmətini qazanmağı bacarmışdı. Bütün fənlərə maraqla və sevgiylə yanaşan Mədinənin ən sevdiyi fənlər isə Azərbaycan dili və İngilis dilidir. Bu günkü uğurlarına və gələcəkdə əldə edə biləcəyi nailiyyətlərinə görə öncədən bütün müəllimlərinə minnətdar olan Mədinə hər bir müəllimini ayrı bir sevgiylə sevsədə ən sevdiyi müəllimələri Natiqə müəllimə və Gülmirə müəllimədir.O uğura gedən yolda özünə yol yoldaşı olaraq kitablarını və o kitabları onun üçün doğmalaşdıran, sevdirən müəllimlərini seçmişdir. Hər bir qərarında valideynləri ən böyük dəstəkçiləri olmuşdur. Ailəsi əllərindən gələni dirlər ki, Mədinə ali təhsil alsın, savadlı , bilikli bir insan kimi, vətəninə, xalqına layiqli bir övlad kimi yetişsin. Onun arzusu gələcəkdə İngilis dili müəllimi olmaqdır. Mədinənin bir çox uğur və nailiyyətləri var. Həmçinin də sinif əlaçısıdır.Boş vaxtlarını dərslərini oxumaqla dəyərləndirən Mədinənin ailəsi 5 nəfərdən ibarətdir.

Atası-Məmmədov Əjdər 14 fevral 1967-ci ildə anadan olub.

Anası-Məmmədova Əsmayə 16 aprel 1981-ci ildə anadan olub, tibb bacısı kimi fəaliyyət göstərir. İki qardaşı var Məmmədli Ayxan və Məmmədov Sərxan.

Biz də öz jurnalımız adından Mədinəyə gələcək həyat yolunda uğurlar arzu edir və qazandığı nailiyyətlərlə valideynlərinin və müəllimlərini fəxri olmağını diləyirik.-Yolun açıq olsun!

# Məmmədrzayeva Sehran



**Nadanlar elmə həqarətlə baxır,**
**savadsızlar ona heyran olur,**
**müdriklər isə ondan bəhrələnirlər.**
Frensis Bekon

Başlıca xüsusiyyətləri nəzərə alaraq təhsil məfhumuna belə tərif verilmişdir: sosial-iqtisadi həyatın tərkib hissəsi kimi, təhsil-müvafiq tədris müəssisəsində müəyyən müddətdə məqsədyönlü, planlı və mütəşəkkil öyrədilən, tərbiyə və psixoloji inkişaf imkanları olan, təlimin bir halda zəruri şərti, digər halda isə nəticəsi kimi özünü göstərən, habelə milli ümumbəşəri səciyyəli biliklər, bacarıq və vərdişlər sistemidir.

Bu cür başa düşülən təhsilin müxtəlif növləri və formaları var. Təhsil ümumiləşmiş məfhumdur. Bu məfhum təhsilin bütün növlərini və formalarını özündə cəmləşdirir. Ümumi təhsil, peşə təhsili, ixtisas təhsili, təkmilləşmə təhsili, aspirantura təhsili, doktorantura təhsili, özünütəhsil və s. təhsil məfhumunun məzmununa daxildir.

Sadalanan təhsil növləri də nisbi mənada ümumi məfhumlarıdır. Bu təhsil növlərindən özünə seçim edən şagirdlərimizdən biri Sehrandır.

Məmmədrzayeva Sehran Möhbalı qızı 2001-ci ildə Yevlax şəhərində anadan olmuşdur. O, təhsil həyatına ilk qədəmlərini 2007-ci ildə qoymuş, Yevlax şəhərindəki 8 saylı tam orta məktəbin birinci sinifinə daxil olmuşdur. Məktəb illərində dərslərini həmişə yaxşı oxumuş, göstərdiyi fəallığı və savadı ilə öz sinif yoldaşlarından seçilən Sehran 2018-ci ildə orta təhsilini başa vurmuş, həmin il qəbul imtahanında yüksək nəticə toplayaraq, Azərbaycan Dillər Universitetinin ingilis dili müəllimliyi ixtisasına qəbul olmuşdur. O, qəbul imtahanında 631 bal topladığına görə oxuduğu məktəbin müdriyyəti tərəfindən ona fəxri fərman verilmişdir. Hal-hazırda həmin universitetin birinci kursunda öz ali təhsilini davam etdirməkdədir.

Sehranın ailəsi 5 nəfərdən ibarətdir:

Atası Məmmədrzayev Möhbalı Səfəralı oğlu 1971-ci ildə anadan olmuşdur. Hal-hazırda tacirətçidir. Anası Əliyarova Vüsalə Surxay qızı 1979-cu ildə anadan olmuşdur. Hal-hazırda evdar xanımdır. Qardaşı Məmmədrzayev Cəbrayıl Möhbalı oğlu 2000-ci ildə anadan olmuşdur. Hal-hazırda tələbədir. Digər qardaşı Məmmədrzayev Məhəmmədəli 2007-ci ildə anadan olmuşdur. Hal-hazırda altıncı sinifdə oxuyur.

Biz də öz redaksıyamız adından Sehrana gələcək həyatında uğurlarının və nailiyyətlərinin bol olmasını arzu edirik. Arzu edirik ki, o, ali məktəbi də yüksək nəticələrlə bitirsin və gələcəyin savadlı, bacarıqlı gənci kimi səsi daima yüksəklərdən gəlsin.



# ƏBDÜLZADƏ ƏLİ



Elmin mənbəyi evimizdən, bağçadan və məktəbdən başlanır. Elm öyrənmək böyük zəhmət, qabiliyyət və zaman tələb edir. Bu işdə bilikli, dünyagörüşlü, milli dəyərlərimizi ifadə edən müasir texnikaya, onun nailiyyətlərinə yiyələnmiş vətənpərvər, fədakar müəllimlərimiz böyük rol oynayır.

Daş-qaş əvəzinə özünə bilik yığsan daha çox tanınarsan: ən qiymətli daşı salıb itirə bilərsən, ən sadə biliyi isə səndən heç kəs ala bilməz.

Qazandığı bilikləri özündə bir sərvət kimi saxlayan və dahada irəliyə aparmağa çalışan şagirdlərimizdən biri də Əlidir. O, təhsilin, savadın insan həyatındakı önəminidə, vacibliyini də yaxşı başa düşür.

Əbdülzadə Əli Abdul oğlu Bakı şəhəri Biləcəri qəsəbəsində anadan olub.2018-ci ildə Emin Əliyev adına 297 saylı tam orta məktəbinin 1-ci sinfinə qədəm qoyub. Hal-hazırda həmin məktəbin 1-ci sinif şagirdidir.Məktəbə başladığı ilk günlərədən dərslərinə olan marağı onu sinifdə digər yoldaşlarından fərqləndirib. Məsuliyyəti və çalışqanlığı ilə müəllimlərinin sevgisini və hörmətini qazanan Əli hər zaman dərslərinə hazır olub və sinif əlaçı olub. Sinif əlaçısı olan Əlinin bütün dərslərə olan marağı onu dərslərində əlaçı olamağa sövq edib, lakin, ən sevdiyi fənlər və bu fənləri ona sevdirən müəllimlər isə, Riyaziyyat, İngilis dili-Pərvin müəllimə, Nailə müəllimə və Cəmilə müəllimədir. Əlinin məqsədi dərslərini əla oxuyub gələcəkdə hakim olmaqdır. O deyir ki, vətəninə, millətinə layiqincə xidmət edib,ədaləti bərqərar etmək isdəyir və ona bu işi sevdirən müəllimlərinə öz təşəkkürünü bildirir. Boş vaxtlarını idmanla məşğul olmaqla dəyərləndirən Əlinin ailəsi 4 nəfərdən ibarətdir.

Atası-Abdulov Abdul Əli oğlu, usta işləyir.

Anası-Abdulova Sevinc Lazım qızı , evdar xanımdır.

Qardaşı-Əbdülzadə Məhəmməd Abdul oğlu, 2-ci sinifdə oxuyur və əlaçıdır.

Biz də öz jurnalımız adından Əli balamıza gələcək həyat yolunda uğurlar diləyir , bütün arzularına catmağı arzu edirik.Hər zaman valideynlərinin və müəllimlərinin fəxri olsan və səsin daim ucalardan gəlsin.Yolun açıq olsun!

# HACIYEV ALİM



Bir xalq yalnız savadlı cəmiyyəti, inkişaf etmiş elmi ilə qürur duya bilər. Yalnız savadlı cəmiyyətlə irəli getmək, uğurlara nail olmaq, ölkəni tanıtmaq mümkündür. Elmin vacibliyini hələ qədim zamanlardan dərk ediblər. Ta qədim zamanlardan elmdə nailiyyətlər əldə etmək üçün çalışıblar. Təbiəti öyrənib, bununla cəmiyyəti məlumatlandırmağa səy göstəriblər.

Savadsız cəmiyyət heç kimə lazım deyil.Bunu anlayan və bu yolda çalışan müəllimlərimizdən biri də Alim müəllimdir.O , öz cəmiyyətinin savadlı yetişməsi üçün əlindən gələnin artığını etməyə çalışıb.O, yaxşı bilir ki, savadlı kadırın bünövrəsin müəllim qoyur.Belə şərəfli bir peşəni icra etdiyi üçün qürur hissi keçirən müəllimlərimizdən biridir Alim müəllim.

Hacıyev Alim Cahangir oğlu 1975-ci ildə noyabr ayının 26 -da Biləsuvar rayonu Aşağı Cürəli kəndində anadan olub.1983-cü ildə Biləsuvar rayon aşağı Cürəli kənd tam orta məktəbinin 1-ci sinfinə qədəm qoyub.1993-cü ildə orta məktəbi bitirən Alim müəllim elə həmin ildə Sumqayıt Politexnik Texnikomuna daxil olub.Texnikomu bitirdikdən sonra isə 1995-ci ildə Naxçıvan Universitetinə qəbul olub.1999-cu ildə ali məktəbi bitirən Alim müəllim elə həmin ildə də hərbi xidmətə yollanıb və vətəninə layiqincə xidmət göstərib.2000-ci ildə hərbi xidməti başa vuran gənc müəllim , Aşağı Cürəli kənd tam orta məktəbində ibtidai sinif müəllimi ixtisası üzrə fəaliyyətə başlayıb.Pedaqoji fəaliyyəti dövründə bir çox uğur və nailiyyətlər əldə edib, Alim müəllim qeyd edir ki, ən onəmli uğuru isə uşaqların sevgisini qazanmaq olub.Müsahibimiz deyir ki, məktəblə ilk tanışlığını yaşayan balaca körpələrin ona o maraqla və bir o qədərdə ürkək baxışlarla baxmağı ona çox dayaq verirmiş, öyrətmək eşqini daha da artırırdı. 2009-cu ildən öz fəaliyyətini bir az daha önə çəkən Alim müəllim, direktor müavini kimi çalışmağa başlayib və hazırda da o vəzifəni icra edir. Alim müəllim ailəlidir və iki övladı var.

Biz də öz jurnalımız adından Alim müəllimə gələcək işlərində uğurlar arzu edirik.Səsiniz hər daim yüksəklərdən gəlsin.Hər zaman öz şagirdlərinizin, yetirmələrinizin sevgisi sizinlə olun.



# ŞAHMURADOVA SAHİBƏ



Milli ideologiyamızı hər yerdə tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır.Gənclərimiz öz tarixini , öz tarixi keçmişini gərək yaxşı bilsinlər.Çünki mənəviyyatımız gənclərin bugünkü və gələcək mənəviyyatı bununla bağlıdır.

Şahmuradova Sahibə Qurban qızı 1957-ci ilin yanvar ayının 3-də Qubadlı rayonunda anadan olmuşdur.1973-cü ildə Qubadlı rayon Qara İlyasov adına orta məktəbi bitirən Sahibə müəllimə hələ orta məktəbdə oxuyarkən ona elmin sirlərini dərindən mənimsədən, Azərbaycan ədəbiyyatına və doğma ana dilimizin incəliklərinə sönməz məhəbbət oyadan və elmi sevdirən müəllimlərinin verdikləri bilik sayəsində gələcəkdə Fizika müəllimi olmağı arzulayırdı. Sahibə müəllimə orta məktəbi bitirdikdən sonra 1973-cü ildə arzusuna çatmaq üçün sənədlərini Azərbaycan Dövlət Pedaqoji Universitetinin fizika fakültəsinə verir. 1973-1977ci illərdə ali təhsilini alır. Ali məktəbi bitirdikdən sonra elə həmin ildəndə Qubadlı rayon Dondarlı kənd tam orta məktəbində pedaqoji fəaliyyətinə başlayır və bir müddət də təşkilatçı müavin vəzifəsində çalışır.

Hal-hazırda da həmin məktəbin fizika müəllimi vəzifəsində çalışır.Sahibə müəlliməə pedaqoji fəaliyyəti müddətində fasiləsiz olaraq, heç bir qüsuru olmadan müəlliməlik etmiş və öz şagirdlərinin sevgisini, hörmətini qazanmışdır.Məsuliyyəti və biliyindən dolayı hər bir valideyn düşünmədən öz övladını Sahibə müəllimıəyə əmanət edir və müəllimədə öz peşəsini şərəflə və layiqincə yerinə yetirir.

Sahibə müəllimə ailəlidir və 3 övlad sahibidir.Qızı- Nəcəfli Arzu, ADU-nu bitirib və Dondarlı kənd tam orta məktəbində Kimya müəllimi kimi çalışır. Oğlu-Mahmudov Əli GDU-ni bitirib və hazırda işləyir.-Digər oğlu- Mahmudov Xalid, GDU-ni bitirb və hazırda magistr təhsili alır.

Sahibə müəllimə həmçinin də bir çox uğurları və nailiyyətləri olan müəllimədir.-Belə ki, Azərbaycan SSR Maarif Nazirliyinin 12 avqust 1986 -cı il tarixli, 307 nömrəli əmri ilə “Baş müəllim“ adı almışdır.

Biz də öz jurnalımız adından Sahibə müəllimıəyə gələcək pedaqoji fəaliyyətində uğurlar arzu edirik.

# HÜSEYNOV RAMİL



**Hər millətin tərəqqisi və fəaliyyətinin başlıca amili elm və əxlaqdır.**

***ABDULLA ŞAİQ***

Müəllimlər cəmiyyətin memarlarıdır desək yəqin ki, səhv etmərik.Bu danılmaz bir həqiqətdir ki, hər kəsin layiqli vətəndaş kimi formalaşmasında müəllimlərimizin əvəzsiz xidmətləri vardır.

Müəllim elm , bilik xəzinəsinin qapısını insanların üzünə açan bir varlıqdır.Bu xəzinəyə inamla daxil olanlar həyatın enişli - yoxuşlu yollarlnda büdrəmir, öz biliyi və əməlləri ilə cəmiyyətin inkişafına töhfələr verirlər. Elə buna görə də dünyada müəllim əməyinin bənzəri yoxdur. Əgər bu gün biz bəşəriyyətin çatdığı yüksək inkişaf səviyyəsi , elmki-texniki nailiyyətlər barədə məmnunluqla söhbət açırıqsa , buna görə ilk növbədə müəllimlərə minnətdar olmalıyıq. İnsan cəmiyyətinin əzəli və sonu müəllim əməyi ilə bağlıdır.İnsanlar öyrənə -öyrənə kamilləşmiş , təbiətin sirlərinə yiyələnərək onu ram etmiş , yeni-yeni kəşflərlə öz həyatlarını yüngülləşdirmişlər.

Əslində müəllim sözü müqəddəs deyil ,müqəddəs olan müəllimlikdir.Yəni müqəddəs olanlar öz vəzifələrini layiqincə yerinə yetirən insanlardır.

Yüksək mədəniyyətə və mənəviyyata malik bir insan , sözün əsl mənasında yaxşı müəllimlərdən və eyni zamanda direktorlarında biri də Hüseynov Ramil müəllimdir.

Hüseynov Ramil Əsədulla oğlu 23 fevral 1981-ci ildə Biləsuvar rayonunda anadan olmuşdur. 1988 -ci ildə Biləsuvar rayon Aşağı Cürəli kənd tam orta məktəbinin 1-ci sinfinə qədəm qoymuşdur. Məktəbi bitirdikdən sonra 1998-ci ildə ali məktəbə daxil olub.2018-ci ilin sentyabr ayının 15-dən isə Biləsuvar rayon Aşağı Cürəli kənd tam orta məktəbinin direktoru vəzifəsində çalışır.Hal-hazırda da həmin vəzifəni icra edir.-Ramil müəllim orta məktəbdə oxuduğu vaxtlardan belə müəllimlik peşəsinə marağı olan şagirdlərdən olub. Məqsədi məktəbi bitirib ali təhsil ocaqlarından birinə daxil olmaq və şərəfli peşə olan - müəllimlik peşəsinə yiyələnmək olub-.Onda elmə, savada, biliyə maraq oyadan və sevgi hissi oyadan bütün müəllimlərini sevib və onlara hörmət bəsləyib.Amma ən çox sevdiyi və hörmət bəslədiyi müəllimi Əlifağa Şirinov müəllim olub.Pedaqoji fəaliyyəti dövründə bir çox nailyyətlər əldə etmiş Ramil müəllim, bütün dövlət tədbirlərində çox fəal iştirak edib və hazırda da iştirak edir.Həmçinin də Ramil müəllim Yeni Azərbaycan Partiyasının üzvüdür.Dedektiv kitablar oxumağı sevən Ramil müəllim, kitab oxumağı yaşından və bildiklərindən asılı olmayaraq hər bir insanın hər daim oxumasının gərəkli olduğunu deyir.Ailəsi 6 nəfərdən ibarətdır.

Atası-Hüseynov Əsədulla, hazırda işsizdir.

Anası-evdar xanımdır,qardaşı-Hüseynov Şamil, işsizdir.Bacısı-Hüseynova Şəfəq, ailəlidir, digər bacısı-Hüseynova Şəhla, ali təhsillidir.

Biz də öz jurnalımız adından belə şərəfli peşə sahibəsi olan Ramil müəllimə gələcək pedaqoji fəaliyyətində uğurlar diləyrik.



# HÜSEYNOV TURAL



**“Yalnız zərərli bir şeyi etmək istədikdə gücə ehtiyacımız var, əks təqdirdə sevgi hər şeyi etmək üçün kifayətdir.” deyiblər. Hər bir insan çalışmalıdır ki, həyatda hansı yolu tutur tutsun, hansı peşəni seçir seçsin etdiyini sevgiylə etməlidir. Bu zaman uğurlar da bol olar, nəticələr də ürək açan.**

**“Yağış torpağı canlandırdığı kimi, Allah- Tala da hikmətlə qəlbləri işıqlandırır” (Həzrəti Loğman)**

Öz peşəsini sevgiylə yerinə yetirən, daim bilik savad öyrətməyə çalışan müəlimlərimizdən biri də Hüseynov Tural müəllimdir.

Hüseynov Tural Valeh oğlu 1 dekabr 1983-cü ildə Biləsuvar Rayon Aşağı Cürəli kəndində anadan olmuşdur.1990-cı ildə Biləsuvar rayon Nizami Gəncəvi adına 1 saylı tam orta məktəbin 1-ci sinfinə qədəm qoymuşdur.Orta məktəbi bitirdikdən sonra ali məktəbə daxil olmuş və fransız dili müəllimliyi peşəsinə yiyələnmişdir.Hal-hazırda Biləsuvar rayon Aşağı Cürəli kənd tam orta məktəbində direktor müavini vəzifəsində çalışır.Məktəb vaxtından ən çox sevdiyi və hələ də maraqla oxuduğu Tarix və Ədəbiyyat fənlərinə xüsusi bir sevgiylə yanaşan Tural müəllim öz bilik və elmini daha da genişləndirmək üçün əlindən gələni əsirgəmir və bunun üçündə ilk yolu kitab oxumaqda görür.-Bir çox uğur və nailiyyətləri olan Tural müəllim, həm də, 2011-ci ildə nəşr olunmuş “Fransız dili“ adlı kitabın və 2016-cı ildə nəşr olunmuş “Le Français“ adlı test vəsaitinin müəllifidir.Boş vaxtlarını da kitab oxumaqla, xüsusilə də dedektiv romanlar, və mətbuatı izləməklə keçirən Tural müəllimin 5 nəfərlik ailənin üzvüdür.

Atası-Hüseynov Valeh Aydın oğlu, 11 yanvar 1956-cı ildə anadan olub və hazırda G.E.M -də sanitar həkim kimi fəaliyyət göstərir.

Anası-Hüseynova xüraman Nadir qızı, 1 yanvar 1959-cu ildə anadan olub.Jurnalistdir.

Qardaşı-Hüseynov Murad Valeh oğlu, ticarətlə məşğuldur.

Bacısı-Babayeva Süsən Valeh qızı, ailəlidir 1 ovladı var və orta təhsillidir.

Biz də öz jurnalımız adından Hüseynov Tural müəllimə gələcək pedaqoji fəliyyətində müvəffəqiyyətlər arzu edirik və bu şərəfli peşəni layiqincə yerinə yetirdiyinə görə öz təşəkkürlərimizi bildiririk.

# Məmmədova Xəzangül





AZƏRBAYCAN RESPUBLİKASI
YEVLAX ŞƏHƏR İCRA HAKİMİYYƏTİ

FƏXRİ FƏRMAN

Məhərrəmova Xəzangül Mirzalı qızı

*Şəhər 7 N -li tam orta məktəbin müəllimi*

Şəhərin ictimai-siyasi həyatında fəal iştirak etdiyinə və Novruz bayramı münasibətilə

TƏLTİF EDİLİR

Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı: Q.SƏMƏDOV

**Bilməməkdən qorxma, səhv bilməkdən qorx. Çünki bütün fəlakətlər ona görə baş verir.**

***Lev Nikolayeviç Tolstoy***

Cəmiyyəti idarə edən hər kəsin - fəhlənin, mühəndisin, həkimin, alimin tərbiyəsində müəllimin rolu əvəzedilməzdir. Müəllimlik şərəfli, müqəddəs və bir o qədər də çətin peşədir. Müəllim şagirdlərin düzgün addım atmasında bələdçi rol oynayır. Hər-birimizi sirli-sehrli aləminə qovuşduran, həyatın keşməkeşli yollarında bələdçimiz olan, ömür qapılarını üzümüzə açan müəllimlərimiz olmuşdur. Şagirdlərinə sonsuz sevgi, qayğı və mərhəmət hissi ilə yanaşan müəllimlərimizdən biri də Xəzəngül müəllimədir.

Məmmədova Xəzəngül Mirzalı qızı 1963-cü ildə Yevlax şəhərinin aşağı Qarxun kəndində anadan olub. Ailəlidir və 3 övladı var: Məmmədova Nüşabə (GDU-da fizika fakültəsi), Məmmədova Xəyalə (AMİ-də riyaziyyat-informatika fakültəsi), Məmmədov Yusif (Min.Turizm kollecində nəqliyyat daşınmasının təşkili) hal-hazırda əsgəri xidmətdədir. O, 1980-cı ildə Yuxarı Qarxun kənd orta məktəbini bitirmişdir. 1981-ci ildə keçmiş Kirovabad Pedaqoji İnistitunun fizika-riyaziyyat fakültəsinin riyaziyyat müəlliməliyi ixtisasına qəbul olmuşdur. Ali təhsilini bitirdikdən sonra 1986-cı ildən Yuxarı Qarxun kənd orta məktəbinə riyaziyyat müəllimi kimi təyin olunmuşdur. Daha sonra isə 1994-cü ildən Yevlax şəhəri Nizami adına 7 nömrəli orta məktəbdə fəaliyyətə başlamış və hal-hazırda həmin məktəbdə də işləyir. Bir müəllim kimi o, öz peşəsinə ürəkdən bağlıdır. Xəzəngül müəlliməmüəllimlik həyatında bir çox nailiyyətlərə imza atmışdır. O, yevlax şəhərinin ictimai-siyasi həyatında fəal iştirak etdiyinə görə və Novruz bayramı münasibətilə fəxri fərmanla təltif edilmişdir. Bu nailiyyətləri üçün öncə onu böyüdən valideynlərinə, yetişdirən məktəbinə, o cümlədən, həyatı boyunca minnətdar olduğu Əflatun müəllimə, işlədiyi 7 nömrəli məktəb rəhbərliyinə borclu olduğunu qeyd edir.

Bu il həmin məktəbin 11-ci b sinif şagirdlərinin nəticələrində böyük göstəriciləri olmuşdur. Belə ki, sinif rəhbəri və riyaziyyat müəlliməsi olduğu bu sinifdə 18 şagird oxuyurdu. Bunlardan Kərimzadə Yavuz 3-cü qrup üzrə 660 bal, Məmmədova Mədinə 3-cü qrup üzrə 600 bal, Mirzəyev Xəlil 3-cü qrup üzrə 517 bal, Əlizadə Elroman 3-cü qrup üzrə 512 bal, Məmmədov Natiq 1-ci qrup üzrə 506 bal, Nəsibli Xədicə 4-cü qrup üzrə 350 bal, Kərimov Ramil 4-cü qrup üzrə 360 bal toplayıb, Respublikamızın müxtəlif ali məktəblərinə qəbul olunmuşdurlar. Bundan sonra 2 nəfər şagird isə 200-300 arası bal toplamışdırlar.

Xəzangül müəllimə bildirir ki, işlədiyi 7 nömrəli məktəb onun bu nailiyyətini heç də gözdən qaçırmamışdır. 2012-ci ildə onu "ilin ən yaxşı" müəllimi seçmişdirlər. Biz də redaksiyamız adından Xəzangül müəlliməyə gələcək həyatında müvəffəqiyyətlərinin bol olmasını və çoxlu şagird uğuru arzulayırıq.



# HƏSƏNOVA NƏZRİN





Azərbaycan Respublikası
Bakı şəhər Binəqədi rayonu

FƏXRİ FƏRMAN

E.Əliyev adına 297 nömrəli tam orta məktəbin 2c sinif şagirdi

Həsənova Nəzrin Həsrət qızı

Tədris ilində yüksək nəticələr göstərdiyinə, öz davranışı, zəkası, mədəniyyəti və tərbiyəsi ilə digər şagirdlərdən fərqlənərək təhsildə uğurlar əldə etdiyinə görə təltif edilir.

Binəqədi rayonu 297 nömrəli tam orta məktəbin direktoru N.S.Cəfərova

«14» iyun 2018

**İnsana arxadır onun kamalı,**
**Ağıldır hər kəsin dövləti , malı.**

***(NİZAMİ GƏNCƏVİ)***

Belə bir deyim var ki, " Abdaldan paşa olmaz , taxtadan -maşa".İnsan elmə savada yiyələnə bilmədiyi vaxt sanki, həyatda hər şeyi yarım qoyur.Bilikli biri ilə biliksiz, savadsız birinin düşüncələri arasinda, qərarları arasında çox fərq olur. Elm insanın cövhəridir. Bilikli olmaq azdır, gərək bu bilikdən istifadə etməyi bacarasan.Buna isə bacarıq və dünygörüşü şərait yaradır.Öz bacarığı , savadı, biliyi ilə seçilən və bu yolda daha da irəliləməyə çalışan şagirdlərimizdən birdə Həsənova Nəzrin balamızdır. Nəzrin yaşının az olmasına baxmayaraq, gələcək həyat yolunu öz savadı ilə işıqlandırmağa çalışır və bu yolda özünə kitablarını yoldaş seçib.

Həsənova Nəzrin Həsrət qızı 29 yanvar 2010-cu ildə Bakı şəhərində anadan olmuşdur. 2016-cu ildə Biləcəri qəsəbəsi 297 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olmuşdur. Hal-hazırda həmin məktəbin 3-cü sinif şagirdidir. Nəzrin çalışqan və zəkalı qızdır, ona tədris olunan bütün fənlərini sevir. Müəllimlərinin sevimli və məsuliyyətli şagirdlərindən olan Nəzrinin ən sevimli müəlliməsi Mətanət müəllimə, ən sevdiyi fənn isə Riyaziyyat fənnidir. Nəzrinin arzusu dərslərini yaxşı oxuyub ali məktəbə daxil olmaq və həkimlik peşəsinə yiyələnməkdir. Nəzrin istəyir ki, həkim olub bütün xəstə insanlara şəfa versin və vətəninə, millətinə layiqli xidmət etsin. Onun kitablara, bədii ədəbiyyata, mütaliəyə çox böyük marağı var. Yaşının az olmasına baxmayaraq, düşüncələri böyük olan Nəzrin deyir ki, kitab oxumaq insan ruhunun qidasıdır və o , öz ruhunu bu qidadan əsla əsirgəmək fikrində deyil. Dərslərinə, elmə, savada, biliyə olan marağı onu yüksək nəticələrlə əlaçı olmağa sövq etmiş və bir çox fəxri fərmanlarla



təltif olunmuşdur. Boş vaxtlarını da kitab oxumaq ilə dəyərləndirir və əlavə məlumat almaq , bilik əldə etmək ona çox maraqlı gəlir. Nəzrinin ailəsi 4 nəfərdən ibarətdir.

Atası-Həsənov Həsrət Şahid oğlu 25 avqust 1984-cü ildə Ağdaş rayonunda anadan olub və hal-hazırda tikinti sahəsində çalışır.

Anası-Həsənova Zəhra Xanat qızı 8 iyun 1990-cı ildə Qəbələ rayonu Dığalı kəndində anadan olub və evdar xanımdır.Anası Zəhra xanım Nəzrinə dərslərində çox köməklik edir və qızının uğurlarını görmək bir valideyn kimi onu çox sevindirir. Bir bacısı olan Nəzrin həmişə ailəsinin və müəllimlərinin fəxri olmağa çalışır.-Həsənova gülşən Həsrət qızı, hazırda 1-ci sinif şagirdidir.

Bizdə öz jurnalımız adından Nəzrin qızımıza gələcək həyat yolunda bolluca uğur və nailiyyətlər arzulayırıq. Hər zaman ailənin fəxri ol.Səsin daima yüksəklərdən gəlsin.Yolun açıq olsun!

# Məmmədov Sərxan





**Övladım! Vaxtının bir hissəsini elm öyrənməyə ayır!**
**Çünki heç bir şey elmdən uzaqlaşmaq kimi insan ömrünü məhv etmir.**

***Loğman***



Bilik xəzinədir. Elm, bilik o qədər həzz mənbəyidir ki, o insana hər şeyi, hətta fiziki iztirabı, necə qocaldığını belə unutdura bilər. Öyrənilməsi lazım olanlar həddindən artıq çox, insan həyatı isə olduqca qısadır. Biliksiz həyat həyat deyil. O adam məharətlidir ki, çox əziyyət çəkmədən elmə yiyələnir. Çox şeyi başqalarından öyrənir, hamının müdrikliyindən və qabiliyyətindən bəhrələnir. Yaşayaraq əldə edilən bilik daş üzərinə həkk edilmiş yazıdır. Biz elmi-texniki tərəqqi əsrində yaşayırıq. Bu əsr elə bir əsrdir ki, bu zamanda cəmiyyətin inkişaf templəri, onun iqtisadi inkişafı birbaşa olaraq bilik və elmdən asılıdır. Bunu dərk edib, elmlə yaxından tanış olmağa can atan gənclərdən biri də Sərxandır.

Məmmədov Sərxan Əjdər oğlu 3 yanvar 2004-cü ildə anadan olmuşdur. O, 2010-cu ildə Qubadlı rayon Ə.Əliyev adına Qəzyan kənd tam orta məktəbinin 1-ci sinifinə daxil olmuşdur. Halhazırda həmin məktəbin 9-cu sinifində təhsil alır. Sərxan dərslərini yaxşı oxuyur və öz tərbiyəsi, ağlı, savadı və bacarıqları ilə həm müəllimlərinin, həm də sinif yoldaşlarının rəğbətini qazanmışdır. Onun ən çox sevdiyi fənn Riyaziyyat fənni, ən sevimli müəllimləri isə Nəzakət müəllimə, Sədaqət müəllimə, Zümrüd müəllimədir.

Sərxan idmanla məşğul olmağı çox sevir, xüsusilə də futbolla yaxından maraqlanır. O, çox yaxşı futbol oynaya bilir və bunun nəticəsidir ki, bu sahədə bir neçə uğurları, nəaliyyətləri vardır. Gürcüstanda keçirilən futbol üzrə yarışda Sərxan 1-ci yeri, Türkiyədə keçirilən yarışda 3-cü yeri tutmuşdur.

Boş vaxtlarında idmanla məşğul olan Sərxan, həm də dərslərini oxumağı, təkrarlamağı da yaddan çıxarmır. Onun atası Məmmədov Əjdər sürücü, anası Məmmədova Əsmayə isə tibb bacısıdır. Onlar övladlarının uğurları ilə fəxr edir və daima onu dəstəkləyirlər.

Sərxan gələcəkdə peşəkar futbolçu olmaq istəyir və bunun üçün az yaşlarından çalışır. Biz inanırıq ki, Sərxan gələcəkdə tanınmış, professional futbolçu olacaq və hətta respublikamızı digər ölkələrdə layiqincə təmsil edəcək. Bu yolda ona uğurlar arzu edirik. Yolun daima açıq olsun!



# Tahirova Arzu



**Bir elmi öyrənmək istədikdə sən**
**Çalış ki hər şeiy kamil biləsən.**
**Kamil bir palançı olsa da insan,**
**Yaxşıdır yarımçıq papaqçılıqdan.**

***Nizami Gəncəvi***

Təhsili cəmiyyətin fəal hərəkətverici, inkişafetdirici qüvvəsinə çevirənlər məhz müəllimlərdir. Təhsilin məzmunu nə qədər yüksək və mükəmməl, maddi-texniki bazası nə qədər möhkəm, biliklərin ötürülməsi vasitələri nə qədər təkmil və müasir olsa da, əgər müəllim yoxdursa, heç nədir. Təhsil məhz müəllim əqlinin gücü ilə cəmiyyətin inkişaf amilinə çevrilir, biliklərin, mədəniyyətlərin, milli adət-ənənələrin daşıyıcısı olan yeni-yeni nəsillər məhz müəllim zəkasının nurundan, müəllim qəlbinin hərarətindən pay alaraq formalaşır. Bu baxımdan müəllim təhsildə əsas sima, aparıcı qüvvədir.

Cəmiyyəti idarə edən hər kəsin - fəhlənin, mühəndisin, həkimin, alimin tərbiyəsində müəllimin rolu əvəzedilməzdir. Müəllimlik şərəfli, müqəddəs və bir o qədər də çətin peşədir. Müəllim şagirdlərin düzgün addım atmasında bələdçi rol oynayır. Hər-birimizi sirli-sehrli aləminə qovuşduran, həyatın keşməkeşli yollarında bələdçimiz olan, ömür qapılarını üzümüzə açan müəllimlərimiz olmuşdur. Şagirdlərinə sonsuz sevgi, qayğı və mərhəmət hissi ilə yanaşan müəllimlərimizdən biri də Arzu müəllimədir.

Tahirova Arzu Gürşad qızı 1992-ci ildən Yevlax şəhər Nizami adına 7 nömrəli tam orta məktəbdə fəaliyyətə başlamışdır. Hal-hazırda həmin məktəbdə Texnologiya müəlliməsi işləyir. O, işlədiyi müddətdə məktəbin ictimai işlərində fəal iştirak etmişdir. 2004-cü ildən məktəb həmkarlar təşkilatının sədridir. 2017-ci ildə Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının XVII hesabat seçki konfransına Yevlax şəhər həmkarlar ittifaqı təşkilatından nümayəndə seçilmişdir. 2018-ci ildə 7-ci "ç" sinifində şəhər üzrə Texnologiya fənnindən müasir dərsin tələblərinə cavab verə biləcək səviyyədə açıqdərsi təşkil olunmuşdur. Dərsin mövzusu idi. Dərsin motivasiya hissəsində heyvandarlıqla bağlı suallar qoyuldu. Ölkəmizin iqtisadiyyatından söhbət açıldı, dövlət başçımızın diqqət və qayğısı nəticəsində ölkəmizdə kənd təsərrüfatı ildən ilə inkişaf edir, heyvandarlıq və əkinçiliyin xüsusilə inkişaf etdirildiyi vurğulandı.Dərsin əsas məqsədi milli mətbəximizin nə qədər zəngin olduğunu, milli xörəklərimizin dünya mətbəxləri içərisində öz yeri olmasını vurğulamaq və bu haqda əyani məlumat vermək idi. Dərsdə mətbəximizin ən gözəl təamlarından olan ət qutab kotlet langet, şagirdlərin təqdimatında hazırlandı və süfrəyə gözoxşayan formada təqdim olundu. Dərsdə iştirak edən müəllimlər təamların həm dadından, həm də süfrədə hər bir şeyin dəqiqliyindən razı qaldılar.

Arzu müəllimə hal-hazırda 8-ci "ç" sinifinin rəhbəridir. Sinifi məktəbin ictimai işlərində fəal iştiraj edirlər. 9 noyabr 2018-ci il tarixində Dövlət Bayrağı günü ilə əlaqədar keçirilən əl işlərindən ibarət sərgidə fəal iştiraklarına görə Fəxri fərmanla təltif edilmişlər.

# ƏLƏKBƏROV MURAD



Elm, savad, bilik və təhsilin bizim həyatımızda önəmi hamımıza məlumdur. Elm insanın dünyagörüşünü artırmaqla yanaşı, həm də bizdə insani keyfiyyətlərin zənginləşməsinə şərait yaradır. Elm, savad insanı aydınlığa aparan yol, onu müdrik bir insana çevirən vasitədir. Hər birinin istəyi savadlı, dünyagörüşlü, bilikli, ziyalı bir şəxs olmaqdır. Bu yolda isə bizə kömək edən, yolumuzu işıqlandıran vasitə elmdir. Savadlı insan həmişə həyatında özünə düzgün yön seçə, doğru qərarlar verə bilir. Elmin, savadın, biliyin mahiyyətini dərk edən və bu yolda irəliləməyə çalışan şagirdlərimizdən biri də Muraddır.

Ələkbərov Murad Sabir oğlu 20 iyul 2011-ci ildə Neftçala rayonu Mirqurbanlı kəndində anadan olmuşdur. 2017-ci ildə Qubadlı rayon Çardaxlı kənd tam orta məktəbinin 1-ci sinfinə qədəm qoyub. Hal-hazırda həmin məktəbin 2-ci sinif şagirdi olan Murad oxuduğu illər ərzində əlaçı şagird olmuşdur.Muradın ən çox sevdiyi fənlər Azərbaycan dili və Riyaziyyat və ən çox sevdiyi müəllimə isə Salmanova Yeganə müəllimədir. Muradın arzusu gələcəkdə polis və ya həkim olub, vətəninə layiqli xidmət göstərməkdir.Murad dərsləri ilə yanaşı boş vaxtlarında rəqslə məşğul olur və rəsm çəkir.

Ələkbərov Muradın ailəsi 4 nəfərdən ibarətdir: atası, anası, qardaşı və özü.

Atası-Ələkbərov Sabir Cabbar oğlu, 9 may 1982-ci ildə Neftçala rayonu Mirqurbanlı kəndində anada olub və hazırda usta işləyir.

Anası-Ələkbərova Nuranə Sübhan qızı , 23 may 1990-cı ildə Neftçala rayonu Xolqorabucaq kəndində anadan olub və evdar xanımdır.

Qardaşı- Ələkbərov Samir hazırda 4-cü sinif şagirdidir.

Bizdə öz növbəmizdə Murada uğurlar arzulayır, müvəffəqiyyətlərinin daimi olmasını diləyirik.



# MURADLI YUSİF





İnsanın bildiyi və öyrəndiyi şeylər bilmədiyinin müqabilində heç dərəcəsindədir. Onlar təhsil üçün deyil, təhsil onlar üçündür. Hədəf və məqsədi bəlli olan bir elm - sahibi üçün əbədi davam edəcək bərəkət qaynağı və tükənməz bir xəzinədir. Bu xəzinəyə malik olanlar yaşadıqları müddət ərzində hətta daha sonraları da bir şirin su qaynağı kimi daim ziyarət edilir və xeyrə vəsilə olurlar. Məşhur yunan müdriklərindən biri olan Solonun bu fikri ayrı-ayrı insanlara deyil bütün bəşəriyyətə söylənilən nəsihətlərdən biridir: “Nə qədər ki, yaşayırsan öyrən, gözləmə ki, qocalıq gələndə sənə kamal gətirəcək.”

Həyat yolunda da öyrənməyi, təhsil almağı, bilik qazanmağı seçən şagirdlərimizdən biri də Muradlı Yusifdir.

Muradlı Yusif Faiq oğlu Nəsimi rayonunda anadan olmuşdur. 2018-ci ildə 297 nömrəli məktəbin 1-ci sinfinə getmişdir.Məktəbə qədəm basdığı ilk gündən həm çalışqanlığı və zəkası ilə, həm də təlim-tərbiyəsi ilə müəllimlərinin diqqət mərkizində olmuşdur. Hal-hazırda həmin məktəbin 1-ci sinifində təhsil alır. Yusifin ən çox sevdiyi fənn isə Azərbaycan dilidir. Ən çox sevdiyi müəllimləsi isə İbrahimova Pərvin müəllimədir. Arzuladığı peşə gələcəkdə polis olmaq və ədalətin keşiyində durmaqdır. Vətəninə, millətinə şərəflə xidmət etməkdir. Yusif həm müəllimlərinin, həm də valideynlərinin fəxri olmağı arzu edir. Boş vaxtlarında dərsləri ilə məşğul olmağı və rəsm çəkməyi sevən Yusif dərslərini də vaxtlı vaxtında hazırlayır və sinif əlaçısıdır. Yusifin ailəsi 4 nəfərdən ibarətdir.

Atası rəngsaz işləyir. Anası isə evdar xanımdır. Bir qardaşı var Muradov Elşən. Biz də öz jurnalımız adından Yusif balamızın uğurlarının bol olmasını diləyirik. Daim ailənin və müəllimlərinin fəxri olasan. Yolun açıq olsun!






2013-cü ildən nəşr olunan Təhsil Yenilikləri qəzeti və eyni adda xüsusi buraxılış jurnalı əsasən dövlət və dövlətçiliyi təbliğ edir. Öz saylarında daha çox təhsil, təhsildəki yeniliklər haqqında məlumat verir.

Xüsusi buraxılış olan jurnalda istənilən şəxslər öz yazılar ilə çıxış edə bilər. Belə ki, qabaqcıl ziyalılar, müəllimlər, həkimlər, tələbələr, şagirdlər və qeyri-ixtisasın sahibləri öz yazılarını jurnalda çap etdirə bilərlər. Eləcə də 500-dən yuxarı bal toplayan məzunlar, əlaçılar, idmançılar, maraqlı əl işləri olan gənclər, səs qabiliyyəti olan və şeir yazmaq və demək qabiliyyəti olan şagirdlər də jurnala müraciət edə bilərlər.

Onu da qeyd edək ki, jurnal şəhid övladlarına, fiziki əqli cəhətdən zəif olan şagirdlərə, o cümlədən hər iki valideynini itirən şagirdlərə pulsuzdur.

Əziz oxucular! Əgər sizlər də jurnalda məqalə, elan, təbrik və reklam vermək istəyirsinizsə aşağıdakı telefonlarla əlaqə saxlaya bilərsiniz:

Telefon nömrələri:
(070) 077 988 82 83    077 632 22 86 WhatsApp    012 408 91 92

Mail: tehsil_news@mail.ru
Facebook: Tehsil Yenilikleri    İnstagram: tehsil_yenilikleri    Youtube: Təhsil Yenilikləri

# ÇAĞDAŞ TƏHSİL

Xüsusi buraxılış Dekabr 2018-ci il (01)









# EUROHOME

*Müasir dam örtükləri*

Hər növ polimer örtükləri, yeni dam örtüklərinin sifarişi

RUUKKI

**İtalya, Koreya, Çin, Türkiyyə, Ukrayna və bütün dövlətlərin mallarının satışı.**
**Burada hər növ dam örtükləri topdan və pərakəndə satışı olur.**






---

**Ünvan: Xırdalan şossesi, Ekologiya postu ilə üzbəüz**
**EVROHOME mağaza N103**
**Dükanıbn sahibi: Seymur Orucov**
**Tel: (+994 51) 600-02-07**



Təsisçi baş Redaktor:
Vüsal Kəlbəcərli

Redaksiya heyyəti:
Cavid Qurbanov
Qənbər Qurbanov

"Çağdaş Təhsil"
qəzetinin
Xüsusi buraxılış

Ünvan: Azərbaycan Respublikası
Bakı şəhəri, Mətbuat prospekti
529-cu məhəllə
"Azərbaycan nəşriyyatı"
2-ci mərtəbə

Jurnal Redaksiyanın
kompüter mərkəzində
yığılıb, səhifələnib,
çap olunmuşdur.

Tiraj - 500

Tel: 012-408-91-92
077-632-22-86
050-877-71-86